RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 93 (8409) CÜMƏ AXŞAMI, 14 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Beynəlxalq səviyyədə təqdir olunan siyasət

## İlham ƏLİYEV: “Ən böyük qiyməti Azərbaycan xalqı verir”

**Bu günlərdə Sumqayıtda ikinci tibbi maska fabrikinin istifadəyə verilməsi Azərbaycanda koronavirusa qarşı həyata keçirilən kompleks mübarizənin növbəti təsdiqi oldu. Belə ki, bu müəssisənin işə salınması göstərdi ki, respublikamızda həm qoruyucu tibbi ləvazimatlara olan ehtiyac məhz daxili istehsal hesabına ödənilir, həm də pandemiya şəraitində iqtisadi fəallıq və məşğulluq təmin edilir. Bütün bunlar isə Prezident İlham Əliyevin yürütdüyü siyasətin mahiyyətinin ilk növbədə insan amilinə xidmət etməklə kifayət qədər dolğun və əhatəli olmasından xəbər verir.**

### Nümunəyə çevrilən fəaliyyət

Hazırda dünyanın bütün ölkələri öz səylərini koronavirusla mübarizəyə və profilaktika tədbirlərinə yönəldib. Buna baxmayaraq, son statistikaya görə bu infeksiyaya yoluxanların sayı 4,3 milyonu, vəfat edənlərin sayı isə 290 mini ötüb. Virus xüsusən ABŞ və inkişaf etmiş Avropa ölkələrində daha ciddi fəsadlara, xeyli sayda yoluxma və insan itkisinə səbəb olub.

COVID-19 Azərbaycandan da yön ötmədi. Lakin Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən dərhal həyata keçirilən zəruri qabaqlayıcı, çevik və sistemli preventiv tədbirlərin, atılan profilaktik və təxirəsalınmaz addımların nəticəsində virusa kütləvi yoluxmanın qarşısı alındı. Bununla bir daha təsdiq olundu ki, vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyi və hazırkı qlobal problemin təsirindən müdafiəsi respublikamız üçün ən vacib və prioritet məsələdir.

Təsadüfi deyil ki, bu gün Azərbaycanın adı koronavirusa qarşı ən səmərəli mübarizə tədbirləri həyata keçirən ölkələrlə birgə çəkilir. Beynəlxalq təşkilatlar da respublikamızda virusa qarşı atılan qabaqlayıcı addımları digər dövlətlərə nümunə olaraq görürlər. Bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus Prezident İlham Əliyevə ünvanladığı növbəti məktubunda COVID-19-a qarşı mübarizədə qabaqlayıcı tədbirlər həyata keçirdiyi üçün bir daha Azərbaycan hökumətinin gördüyü işləri yüksək qiymətləndirib. Eyni zamanda o, Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyələrdə çoxtərəfli diplomatiyaya və həmrəyliyə dəstəyini nümunəvi adlandırıb və bunun Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilmiş ardıcıl tədbirlər zamanı aydın şəkildə özünü büruzə verdiyini xüsusilə qeyd edib. Sumqayıtda tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında çıxış edən Prezident İlham Əliyev bu barədə deyib: “Bu gün hamımızı və bütün dünyanı narahat edən koronavirus pandemiyasıdır. Bu sahədə də Azərbaycan nümunəvi yanaşma göstərir. Bunu həm Azərbaycan vətəndaşları deyir, - mənə ünvanlanmış minlərlə təşəkkür məktubunda bu, əksini tapır, - həm də beynəlxalq təşkilatlar. Bu yaxınlarda mən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorundan ikinci məktubu almışam. Birinci məktub mart ayının sonunda mənə ünvanlanıb, ikinci məktub isə mayın 7-də. İkinci məktubda da Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda koronavirusla mübarizə sahəsində görülmüş işlərə çox yüksək qiymət verir, işlərimizi təqdir edir. Əlbəttə ki, bu, görülmüş işlərə verilən böyük qiymətdir. Ancaq bir daha demək istəyirəm ki, ən böyük qiyməti Azərbaycan xalqı verir”.

### Azərbaycan öz vətəndaşlarını layiqincə qoruyur

Koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycanda ilk günlərdən həyata keçirilən bütün işlər qeyd etdiyimiz kimi, Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, insanların sağlamlığı, virusun yayılmasının qarşısının alınması baxımından mühüm rol oynayan məhsullar ölkəmizdə istehsal olunmağa başlayıb. İki gün əvvəl Sumqayıtda “Gilan Tekstil Park” Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin istifadəyə verilməsi bu tədbirlərin tərkib hissəsidir. Xatırladaq ki, ilk tibbi maska istehsalı müəssisəsinin açılışı da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında olmuşdu.

Onu da qeyd edək ki Azərbaycanda vaxtilə yaradılmış iqtisadi infrastruktur qısa müddət ərzində lazım olan istehsalat sahələrinin təşkil olunmasına imkan verib. Bu da Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi inkişaf siyasətinin, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması üçün atılan addımların uğurlu nümunəsi kimi təqdirəlayiqdir.

Məlum olduğu kimi, pandemiya ilə əlaqədar son dövrlərdə tibbi maskaya, qoruyucu geyimlərə bütün dünyada tələbat kəskin artıb. Bu səbəbdən də həmin məhsulların dünyanın bir çox ölkələrində böyük qıtlığı yaşanır, eyni zamanda möhtəkirlər də yaranmış vəziyyətdən istifadə edərək, idxal olunan tibbi maskaların qiymətini artırırlar. Bu baxımdan Azərbaycanda qısa müddətdə tibbi maska istehsalına başlanması isə xüsusilə əhəmiyyət kəsb edir.

Ardı 3-cü səh.



## İcra başçısı vətəndaşın yanında olmalı, onların problemlərini həll etməlidir

### Bu, dövlət başçısının əsas tələbidir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.**

AZƏRTAC xəbər verir ki, videoqəbulda çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Siz bu gün Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilirsiniz. Bu, sizə göstərilən böyük etimaddır. Siz bu etimadı doğrultmalısınız. Siz gəncsiniz, cəmi 34 yaşınız var. Sizin təyinatınız, eyni zamanda, onu göstərir ki, gənclərə bu gün çox böyük imkanlar yaradılır, onların fəaliyyəti üçün bütün şərait yaradılıbdır və gənclər məsul vəzifələrə təyin edilirlər.

Ardı 2-ci səh.

## Dövlət vətəndaşından heç nə əsirgəmir

### Prezident İlham ƏLİYEV: “Pandemiyadan, əlbəttə, bizim iqtisadiyyatımız da zərər çəkir. Bu, ikinci dərəcəli məsələdir. Birinci dərəcəli məsələ vətəndaşların sağlamlığıdır”

**Azərbaycan dövləti vətəndaşından heç nə əsirgəmir. İstər insanların sağlamlığı, istərsə də sosial təminatı üçün nə lazımdırsa, hamısını gerçəkləşdirir.**

Son aylar koronavirus pandemiyası ilə mübarizədə dövlət bu prioritetini bir daha dönə-dönə ortaya qoydu. Prezident İlham Əliyev əvvəldən bəyan etdi ki, bizim üçün əsas məsələ insanların sağlamlığı, insanların həyatıdır.

Ölkədə koronavirusla mübarizə, insanların sağlamlığı üçün həyata keçirilən tədbirlər çoxşaxəli və genişmiqyaslıdır. Bu, özünü həm sürətlə yeni xəstəxanaların, qoruyucu vasitələr istehsal edən müəssisələrin tikilməsində, həm tibbi avadanlıqların alınmasında, çox digər kompleks tədbirlərin görülməsində göstərir.

Bakıda “Yeni klinika” istifadəyə veriləndən təxminən bir həftə sonra Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsal edən müəssisə açıldı.

Ardı 8-ci səh.

## Yeni çağırışlara uyğun inkişaf strategiyası

### Prezident İlham Əliyev pandemiya dövründə də yüksək rifaha və mütərəqqi idarəçiliyə xidmət edən islahatlarını davam etdirir

**Dünyada, o cümlədən Azərbaycanda qlobal pandemiya təhlükəsi hələ də sovuşmadığı üçün virusla mübarizə tədbirləri, maarifləndirmə işləri davam etdirilir.**

Əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin prioritetini təşkil edir. Məhz dövlət başçısının problemə strateji baxışı və risklərin dəyərləndirilməsinə əsaslanan uzaqgörən qərarları virusun yayılmasının qarşısının alınmasına və yoluxma zəncirinin qırılmasına gətirib çıxardı.

Xalqın sağlıq durumunu diqqətdə saxlayan Prezident eyni zamanda ölkədə makroiqtisadi sabitliyin qorunması üçün tədbirləri, eləcə də struktur-kadr islahatlarını davam etdirməkdədir. Ölkədə baş verən proseslərə nəzər yetirsək, bunun şahidi olarıq.

Bəzi rayon icra hakimiyyəti başçılarının, icra nümayəndələrinin həbs olunması, yeni baş prokurorun təyinatı, paralel olaraq pandemiyanın vurduğu zərərə görə sahibkarlara dövlət yardımının edilməsi ilə bağlı qanunvericiliyə dəyişiklik edilməsi, habelə cəza siyasətinin humanistləşdirilməsi aparılan islahatların davamı kimi qiymətləndirməlidir.

Ötən həftə Kamran Əliyevi Azərbaycan Respublikasının baş prokuroru təyin edən dövlət başçısı, videoformatlı qəbulda iqtisadi və struktur islahatlarına geniş şəkildə toxundu.

Ardı 8-ci səh.

**Koronavirusla mübarizəyə həsr olunmuş “COVID-19-a qarşı birlikdəyik” mövzusunda keçirilən Zirvə görüşü bir daha Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq aləmdə nüfuzunun artmasını, bəşəriyyət üçün taleyüklü məsələlərin qaldırılması və onların həlli istiqamətində aparıcı mövqe tutmasını təsdiq edir.**




## Azərbaycan qlobal proseslərə təsir edən nüfuzlu dövlətə çevrilir

Öncə onu qeyd edək ki, Qoşulmama Hərəkatına sədr ölkə kimi koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünün irəli sürülməsi Azərbaycana məxsusdur. COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərmiş, iqtisadiyyatları çökdürmüş və yeni qlobal böhrana səbəb olmuşdur. Bu bəlaya qalib gəlmək üçün bütün səylərin birləşməsi, planetar həmrəyliyin ortaya qoyulması zərurətə çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev videokonfransda BMT-nin, ÜST-ün və digər beynəlxalq qurumların bu sahədə atdığı addımları yüksək qiymətləndirmişdir.

Dövlət başçısı tədbir iştirakçılarına Azərbaycanda pandemiyaya qarşı görülmüş təxirəsalınmaz tədbirlərlə bağlı məlumat vermişdir.

Ardı 3-cü səh.

## Paşinyanın babası faşistlərə xidmət edib

### Ermənistan nasizmin qəhrəmanlaşdırılması prosesinə böyük dəstək verir

Bu gün faşizm ideyalarının yaşadılması istiqamətində fəaliyyət göstərən yeganə ölkə qismində Ermənistanın çıxış etməsi artıq heç kim tərəfindən təkzib edilməyən birmənalı həqiqətdir.

Təsadüfi deyil ki, bütün ölkələr nasizmdən imtina etsə də, yalnız Ermənistan fərqli mövqedədir. Ermənistanın baş naziri Nikol Paşinyanın babasının II Dünya müharibəsində nasistlər tərəfindən döyüşməsi faktının ortaya çıxması da bu mənada çox şeydən xəbər verir. Onun “Njde” ləqəbli Qaregin Ter-Arutyunyanla faşistlər tərəfində döyüşməsi də istisna olunmur.

Xatırladaq ki, Ter-Arutyunyan Üçüncü Reyxin əsas adamlarından idi. O, əsrin əvvəlində azərbaycanlılara qarşı soyqırımı aktlarının törədilməsi planının ideoloji banilərindən sayılır. Onun nasistlərin cəbhəsində 1942-ci ildə ermənilərdən ibarət yaratdığı cəza legionu Ukraynada, Polşada yəhudilərə və digər millətlərə qarşı kütləvi qətliamlar törətmişdir. Tarixi məlumatlara görə, bu legion təkcə Krımda 20 min insanı məhv edib. Ermənistanla yanaşı, müxtəlif ölkələrə səpələnmiş erməni diasporu da Njdenin timsalında faşizmin qəhrəmanlaşdırılması istiqamətində çalışır, müxtəlif şəhərlərdə nasist cəllada abidələr ucaldırlar.

Ermənistanda “küçə inqilabı” ilə hakimiyyətə gələn Nikol Paşinyanın “demokratiya” nağılları bu ölkənin faşizm siyasətindən əl çəkəcəyi, Njdeyə qoyulan abidənin söküləcəyi haqda gözləntilər yaratdı. Lakin Prezident İlham Əliyev ötən il MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən iclasında çıxışı zamanı Ermənistanda faşistlərin qəhrəmanlaşdırılması faktlarını gündəmə gətirəndə Paşinyanın nasizmi müdafiə etməsi bu gözləntiləri sıradan çıxardı.

Ardı 7-ci səh.

▪ Özünü, doğmalarını və dostlarını qorumaq:
▪ Koronavirusa qalib gəlmək üçün
EVDƏ QAL! Biz birlikdə gücliüyük!

# İcra başçısı vətəndaşın yanında olmalı, onların problemlərini həll etməlidir

## Bu, dövlət başçısının əsas tələbidir

*Əvvəli 1-ci səh.*



Son vaxtlar, xüsusilə bu sahədə daha ciddi addımlar atılır. Gənc nəslin nümayəndələri mərkəzi və yerli icra orqanlarının rəhbərliyinə gətirilir. Hesab edirəm ki, bu, düzgün addımdır. Çünki gənclər cəmiyyətimizin fəal təbəqəsidir. Bizim gənclərimizin mütləq əksəriyyəti milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alıb və bu gün ölkəmizin hərtərəfli inkişafı üçün öz biliklərini ortaya qoymağa hazırdırlar.

Ümumiyyətlə, gənclər son illər ərzində ictimai həyatda çox fəal rol oynayırlar. Mən xüsusilə könüllüləri qeyd etmək istərdim. Bu il mənim sərəncamımla "Könüllülər ili" elan edilmişdir. Mən çox şadam ki, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusu yaradılıb və könüllülər öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazana biliblər, bizim ümumi işimizə çox böyük töhfə verirlər. Könüllülər hərəkatı ASAN könüllülərdən başlamışdır. Bu gün ASAN könüllüləri, sözün əsl mənasında, Azərbaycan gəncliyinə xas olan ən gözəl xüsusiyyətləri özlərində birləşdirirlər, o xüsusiyyətləri təcəssüm etdirirlər. Hazırda digər sahələrdə də könüllülər kifayət qədər geniş fəaliyyət göstərirlər. Mən daim onların fəaliyyətini izləyirəm və onların fəaliyyətinə yüksək qiymət verirəm. Mənim göstərişimlə mərkəzi və yerli icra orqanlarında da könüllülər işə cəlb edilməlidirlər. Siz də icra hakimiyyəti başçısı kimi bu məsələyə diqqət yetirin ki, həm ictimai nəzarət baxımından işlər daha yaxşı getsin, həm ictimai fəallıq artsın və bu gün insanları narahat edən məsələlər öz həllini tapsın. Buna nail olmaq üçün əlbəttə ki, ilk növbədə, mərkəzi və yerli icra orqanları səmərəli fəaliyyət göstərməlidirlər, eyni zamanda, ictimai nəzarət yüksək səviyyədə olmalıdır. Ona görə sizin təyinatınız həm sizə göstərilən etimaddır, eyni zamanda, gənclərə göstərilən diqqətdir. Bir daha demək istəyirəm ki, siz bu yüksək etimadı öz işinizlə doğrultmalısınız.

Kəlbəcər Azərbaycanın ən gözəl diyarlarından biridir. Kəlbəcərin füsunkar təbiəti, gözəl meşələri, dağları, çayları, tarixi abidələri Azərbaycan xalqının milli sərvətidir. Əfsuslar olsun, erməni vandalları tərəfindən Kəlbəcərdə və işğal edilmiş digər torpaqlarda yerləşən tarixi abidələrimizin mütləq əksəriyyəti, demək olar ki, hamısı dağıdılıb, yaxud da yarıdağılmış vəziyyətdədir. O cümlədən Kəlbəcər rayonunun ərazisində Azərbaycan xalqına məxsus qədim tarixi abidələr dağıdılıbdır. Amma gün gələcək biz işğal edilmiş bütün torpaqlarda hazırda dağılmış vəziyyətdə olan bütün abidələri, bütün infrastrukturu bərpa edəcəyik. Azərbaycan öz suverenliyini bərpa edəcəkdir və bunu deməyə əsas verən bir çox amillər var. O cümlədən bizim beynəlxalq mövqelərimizin möhkəm olması, ölkəmizin ərazi bütövlüyünün bütün dünya tərəfindən qəbul edilməsi və son illər ərzində bütün aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrində ölkəmizin ərazi bütövlüyünə birmənalı şəkildə dəstək ifadə edilir. O cümlədən bu yaxınlarda separatçılar tərəfindən keçirilmiş qondarma seçkilərin dünya birliyi tərəfindən tanınmaması və aparıcı beynəlxalq təşkilatların bu məsələ ilə bağlı yekdil fikri bir daha bizim mövqeyimizi gücləndirmişdir və separatçılara, onların havadarlarına, işğalçı Ermənistana vurulan növbəti zərbə olmuşdur. Bununla bərabər, əminəm ki, bizim artan iqtisadi potensialımız, hərbi gücümüz və bölgədə artan nüfuzumuz - bütün bu amillər Azərbaycan dövlətinin suverenliyinin tam bərpa olunmasına gətirib çıxaracaqdır. Hər bir Azərbaycan vətəndaşı öz işi ilə bu günü yaxınlaşdırmalıdır və bu istiqamətdə çox fəal iş aparılır.

Kəlbəcərin işğal altına düşməsinin səbəbkarı xəyanətkar AXC-Müsavat hakimiyyətidir. Məhz onların xəyanətkar və yarıtmaz fəaliyyəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdür, vətəndaşlarımız həlak olmuşdur və Kəlbəcərdən olan bütün soydaşlarımız məcburi köçkün şəraitində yaşamağa məcbur olmuşlar. Bu cinayət AXC-Müsavat hakimiyyətinin birinci cinayəti deyildi. Şuşanın və Laçının işğal altına düşməsində də AXC-Müsavat tandeminin çox böyük mənfi rolu olmuşdur. O vaxt onlar Azərbaycanda hakimiyyət davası aparırdılar. Onların əsas məqsədi nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək idi. Bu gün özünü radikal müxalifət adlandıran, əslində, indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa-olsun Azərbaycanda vəziyyəti pisləşdirmək istəyir. Təbii ki, onların buna nə gücü, nə də ağlı çatır. Ancaq onların niyyəti məhz budur: Azərbaycanı ləkələmək, ölkəmizin imicinə zərbə vurmaq, pandemiya dövründə apardığımız uğurlu siyasətə kölgə salmaq, xarici havadarlarının maraqlarını təmin etmək, satqın, xain təbəqə, "beşinci kolon" kimi xarici dairələrin əmrlərini yerinə yetirmək.

1992-ci ildə Şuşanın və Laçının işğal olunması AXC-Müsavat cütlüyünün gənc müstəqil Azərbaycan dövlətinə qarşı etdiyi satqınlıq, xəyanət və cinayətdir. Bir daha demək istəyirəm ki, o vaxt onların əsas məqsədi hakimiyyətə gəlmək idi. Hakimiyyət də kifayət qədər zəif idi, ona görə Şuşanın təhvil verilməsi, Laçının müdafiəsinin lazımi səviyyədə təşkil edilməməsi bilavasitə AXC-Müsavat hakimiyyətinin, o vaxt o partiyaların rəhbərliyinin və onların üzvlərinin cinayətidir. O vaxt guya ki, Şuşanın müdafiəsini təşkil edən bir ünsür, xain, satqın, başına papaq qoyan, ancaq Şuşanı qorxaq kimi tərk edib qaçan demişdi ki, əgər Şuşa işğal altına düşsə, başıma güllə vuracağam. Bu günə qədər müxtəlif dairələrdə fırlanır. Bax, onların əməli budur. Onlar Şuşanı təhvil veriblər ki, Azərbaycanda vəziyyət gərginləşsin, xalq ayağa qalxsın, hakimiyyət devrilsin və onlar hakimiyyətə gəlsinlər və belə də oldu. Bundan istifadə edərək, öz doğma torpaqlarını ermənilərə təhvil verərək AXC-Müsavat satqın cütlüyü 1992-ci ildə Şuşanın və Laçının işğalından sonra hakimiyyətə gəldi. Ancaq bir il ərzində ölkəmizi elə bərbad vəziyyətə qoydular ki, xalq ayağa qalxdı, onları süpürüb zibil yeşiyinə atdı və yeganə nicat yolunu Heydər Əliyevin simasında gördü. O vaxta qədər onlar Kəlbəcəri ermənilərə təhvil verməklə böyük cinayət törətmişdilər. Çünki Kəlbəcərin işğal altına düşməsi coğrafi baxımdan Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yaratdı və artıq bu, dəhliz deyildi, işğal altına düşmüş böyük bir ərazi idi. Bu, əlbəttə ki, ölkəmizə, gənc Azərbaycan dövlətinə vurulmuş böyük zərbə idi. Azərbaycan xalqı bunu unutmamalıdır, xalq düşmənlərini unutmamalıdır. Mən onları öz adları ilə çağırıram. Belə də olmalıdır. Çünki xalqa, dövlətə xəyanət edən xaindir. Xaricin maraqlarını burada təmin etmək istəyən, öz xalqına, öz xalqının, dövlətinin maraqlarına zərbə vurmaq istəyən düşməndir. Bunun başqa adı yoxdur. Hamı da bunu bilməlidir.

Siz gənc kadr kimi, ilk növbədə, məcburi köçkünlərə böyük diqqət göstərməlisiniz. Dövlət xətti ilə məcburi köçkünlərə çox böyük diqqət göstərilir. Fəaliyyətimizin bu istiqaməti 2003-cü ildə mənim Prezident kimi fəaliyyətə başladığım dövrdən əsas xətt kimi davam edir. Mən o vaxt demişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Ancaq biz buna dörd il ərzində nail ola bildik. 2007-ci ildə artıq Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamışdı. Onu da bildirməliyəm ki, çadır şəhərciyi, o acı mənzərə də AXC-Müsavat hakimiyyətinin məhsulu idi. Ondan sonra biz köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində daha fəal işlər apardıq. Bu gün 300 mindən çox məcburi köçkün evlərlə, mənzillərlə təmin edilib. Təkcə keçən il 5 min köçkün ailəsi üçün mənzillər tikilibdir. Bu il isə bu rəqəm 7 minə və ola bilər 8 minə çatacaq. Ona görə dövlət öz üzərinə düşən bütün vəzifələri icra edir. Keçən il mənim sərəncamımla məcburi köçkünlərin maddi təminatı da yaxşılaşdırılmışdır. Onlara verilən müavinətin həcmi 50 faiz artmışdır.

Siz daim xalq içində olmalısınız, vətəndaşlarla bir yerdə olmalısınız, onların problemlərini təhlil etməlisiniz. İlk növbədə, əlbəttə ki, vəziyyəti tam təhlil etməlisiniz və xalqın, məcburi köçkünlərin problemlərinin həlli işində fəal olmalısınız. Elə məsələlər ola bilər ki, yerli icra orqanlarının buna gücü çatmasın, onda siz mütləq mərkəzi icra orqanlarına müraciət etməlisiniz. O məsələlər ki, sizin səlahiyyətinizdə olacaq, təbii ki, bütün bu məsələlər imkan daxilində öz həllini tapmalıdır.

Əlbəttə ki, sosial ədalət prinsipləri üstünlük təşkil etməlidir. Ədalət hər bir sağlam cəmiyyətdə aparıcı ideya, aparıcı tezis olmalıdır. Çünki ədalətsizlik insanları incidir, ədalətsizlik insanlarda inamı qırır. Ədalətsizlik nəticə etibarilə böyük problemlərə gətirib çıxarır. Ona görə hər bir sahədə ədalət prinsipi bərqərar olmalıdır. Məsələn, bu il köçkünlərə 8 minə yaxın mənzil veriləcək. Bu mənzillərin verilməsində tam şəffaflıq olmalıdır. Həm Dövlətqaçqınkom və eyni zamanda yerli icra orqanları burada birgə işləməlidirlər. Köçkünlərin dəqiq uçotu aparılmalıdır. Əfsuslar olsun ki, əvvəlki illərdə bu uçot lazımi səviyyədə aparılmırdı. Belə məlumatlar var ki, bəzən qəsdən aparılmırdı. Çünki dəqiq uçotun olmaması müxtəlif manipulyasiyaya yol açırdı. İndi biz araşdırma, təftiş aparırıq, görürük ki, köçkünlər üçün tikilmiş evlərdə bəzi hallarda heç köçkün statusuna aid olmayan insanlar yaşayır. İndi biz bəzi ictimai binaları boşaldırıq, köçkünləri yeni mənzillərə köçürürük, sonra da görürük ki, - məsələn, bu yaxınlarda mənə məlumat verildi, - bir binada yaşayanların 20 faizi heç köçkün deyildi. Necə gəliblər oraya? Kim onları yerləşdirib? Kim onları qeydiyyata alıb? Dövlət orqanları. Nəyinsə müqabilində bunu ediblər. Yoxsa necə ola bilər ki, köçkünlər üçün nəzərdə tutulan binada başqa insanlar yaşayır. Belə hallar var. Mənzillərin bölgüsündə mənfi hallar kifayət qədər çox idi. Mənə verilən məlumata görə, bəzi hallarda köçkünlərdən pul alırdılar. Halbuki, dövlət onları pulsuz mənzillərlə təmin edir. Bu faktlar da araşdırılır. Ona görə, ilk növbədə, dəqiq uçot aparılmalıdır. Dövlətqaçqınkoma bu məsələ ilə bağlı göstərişlər verilib. Aidiyyəti yerli icra orqanlarının rəhbərliyi bu məsələdə çox diqqətli olmalıdır və bu işlər birgə tənzimlənməlidir.

Xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır. Bu mübarizə bu gün öz nəticələrini verir. Mən bunu bir neçə dəfə demişəm ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir. Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulan o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub. Biz bu vəsaiti ona görə ayırırıq ki, bu gün özünə iş tapa bilməyən adam heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Bunlar ona da göz dikiblər. Yəni gözləri doymur. Bu, bir xəstəlikdir və bu xəstəliyin müalicəsi artıq işə salınıb. Mən bir neçə dəfə xəbərdarlıq etmişəm, açıq demişəm ki, əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq, cəza tədbirləri tətbiq ediləcək. Ancaq bəziləri hesab edirdi ki, bu, onlara aid deyil. Bəziləri hesab edirdi ki, onlar qanundan üstündür. Yaxud da hesab edirdilər ki, kimsə onlara kömək göstərəcək, onların havadarları, onlara uzun illər ərzində dəstək verən yüksəkvəzifəli şəxslər. Mən demişəm ki, bu, olmayacaq. Həyat da bunu göstərdi. Ödəniş kartlarının, sosial yardımın oğurlanması bu cinayətin hələ cüzi bir hissəsidir.

Bir çox rayonlarda yararsız vəziyyətə düşən çoxmərtəbəli binaların sökülməsi və onların yerində yeni binaların tikilməsi üçün mənim sərəncamımla milyonlarla manat vəsait ayrılıb, milyonlarla. Amma sonra bəlli olur ki, o binalarda dövlət tərəfindən mənzillərlə təmin edilən insanlardan pul alınıb. Dövlət pul ayırır, rayon icra hakimiyyəti tikinti ilə məşğul olur. Tikintilərdə də nə qədər pozuntular var, nə qədər pul mənimsənilir, bütün bu faktların hamısı üzə çıxır. Ondan sonra da o mənzillər ki, pulsuz verməlidirlər həmin insanlara, onlardan da rüşvət tələb olunur. Hər addım cinayət, hər addım rüşvət. Buna son qoyulacaq! Heç kimdə şübhə olmasın! Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz. Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm.

Mən, eyni zamanda, demişdim ki, xoşagəlməz hallar təkcə yerli icra orqanlarında deyil, mərkəzi icra orqanlarında da var, siqnallar var, məlumatlar daxil olub. Demişdim, xəbərdarlıq etmişdim, əl çəkin bu işlərdən, əl çəkin! Hesab edirdilər ki, bunlara aid deyil. İndi isə bunun acı nəticələrini yaşayırlar. Ona görə siz gənc kadr kimi icra başçısı vəzifəsində bu amilləri daim nəzərdə saxlamalısınız. Dürüstlük, şəffaflıq, ədalət hər bir dövlət məmurunun iş prinsipi olmalıdır. İş prinsipi bu olmalıdır, rüşvət yox, yalan yox, talançılıq yox, saxtakarlıq yox, vicdansızlıq yox! Dürüstlük, şəffaflıq, xalqa xidmət, ədalət - budur, prinsiplər! Bir daha deyirəm, əgər kimsə hələ də hesab edir ki, kimsə onlara kömək edəcək, səhv edir. Tutulan dövlət məmurlarının acı həyatını yaşamaq istəmirlərsə, düz yola qayıtsınlar.

Mən bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir və siz öz işinizlə bu etimadı doğrultmalısınız. Mən göstəriş vermişəm ki, bütün icra hakimiyyəti başçılarının və mərkəzi icra orqanlarının rəhbərlərinin fəaliyyəti ilə əlaqədar müntəzəm olaraq təhlillər aparılsın, onların əldə etdikləri nəticələr təhlil edilsin. Çünki hər bir rayonun inkişafı böyük dərəcədə rayona rəhbərlik edən şəxsdən asılıdır. Mən demişəm ki, bizim bütün rayonlarımız artıq dotasiya sistemindən çıxmalıdır. Bu istiqamətdə böyük işlər görülüb. Əvvəllər bütün rayonlarımız dotasiya ilə dolanırdı, dotasiyasız öz tələbatını ödəyə bilmirdi. İndi bir çox rayonlar artıq özləri-özlərini təmin edirlər, bu proses davam etdirilməlidir. Yerli vergilərin yığılması ilə əlaqədar şəffaflıq olmalıdır, dövlət vəsaitinin xərclənməsində tam şəffaflıq olmalıdır və rayonların sosial-iqtisadi inkişafı təmin edilməlidir. Onsuz da regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında, - indi dördüncü proqram icra edilir, - bütün bu məsələlər təsdiq edilib, bütün infrastruktur layihələri, bütün əsas tikintilər, bütün sosial infrastruktur layihələri dövlət tərəfindən həyata keçirilir. Ona görə yerli icra orqanları bu istiqamətdə öz səylərini göstərməlidirlər. Bir daha demək istəyirəm, artıq tapşırıq verilib ki, vəzifəli şəxslərin fəaliyyətinin səmərəliliyi və buraxılan nöqsanlar ilə bağlı təhlillər aparılacaq və məlumat nəzarətdə olacaq. Eyni zamanda ictimai nəzarət olmalıdır. Mən vətəndaşlara üz tutub deyirəm, ictimai nəzarət olmayan yerdə adətən pozuntular da olur. Ona görə siz də ictimaiyyəti bu işlərə cəlb edin, xalqla bir yerdə olun, xalqın problemləri ilə yaşayın və elə işləyin ki, vətəndaşlar da sizdən razı olsunlar, hakimiyyət də. Əgər vətəndaşlar sizin fəaliyyətinizdən razı olsalar, mən də razı olacağam. Sizə uğurlar arzulayıram, əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız.

**Azər QOCAYEV:**

- Çox sağ olun, cənab Prezident. Biz gənclərə göstərdiyiniz dəstəyə və böyük etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Mən də, öz növbəmdə, Sizi əmin etmək istəyirəm ki, göstərdiyiniz yüksək etimadı doğrultmaq, yüksək nəticələr, nailiyyətlər əldə etmək üçün dayanmadan çalışacağam. Sizə minnətdarlığımı bildirirəm, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:**

- Sağ ol, sənə uğurlar.

---

## A.B.Qocayevin Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Azər Bəhlul oğlu Qocayev Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2020-ci il*

---

## Hacıqabul Sənaye Məhəlləsinin ərazisinin genişləndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyətinin genişləndirilməsi üçün Hacıqabul rayonu ərazisində 40 hektar torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilərək, sənaye təyinatlı torpaqlar kateqoriyasına keçirilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Sərəncamın 1.1-ci bəndində nəzərdə tutulmuş torpaq sahəsinin icarəyə vermək hüququ ilə "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin daimi istifadəsinə verilməsini üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Hacıqabul Rayon İcra Hakimiyyəti bu Sərəncamın 1.1-ci bəndində nəzərdə tutulmuş torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2020-ci il*

---

## "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında vətəndaşların videoqəbulunun təşkili Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında vətəndaşların qəbulu sahəsində operativliyin təmin edilməsi və vətəndaş müraciətlərinə baxılma işində səmərəliliyin artırılması məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında vətəndaşların videoqəbulunun təşkili Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və yerli icra hakimiyyəti orqanları videoqəbulların təşkili və həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2020-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında su təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2004-cü il 11 iyun tarixli 252 nömrəli, "Azərbaycan Respublikasında istilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2005-ci il 8 iyun tarixli 847 nömrəli, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2008-ci il 16 aprel tarixli 2761 nömrəli, "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2008-ci il 13 iyun tarixli 2868 nömrəli, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2009-cu il 20 iyul tarixli 383 nömrəli, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında" 2010-cu il 3 may tarixli 885 nömrəli, "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində Hərbi Ovçuluq İttifaqının yaradılması haqqında" 2013-cü il 24 iyul tarixli 3017 nömrəli, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" 2014-cü il 10 yanvar tarixli 213 nömrəli, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2014-cü il 27 fevral tarixli 289 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1584-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında su təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 iyun tarixli 252 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 6, maddə 456; 2016, № 2 (II kitab), maddə 350) 3-1.2.3-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasında istilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 8 iyun tarixli 847 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 506; 2016, № 2 (II kitab), maddə 351) 2-1.2.3-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 16 aprel tarixli 2761 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 278; 2010, № 7, maddə 610; 2016, № 2 (II kitab), maddə 337; 2018, № 9, maddə 1840) 2.2.3-cü yarımbəndində "və mühasibat balanslarının qəbul edilməsi" sözləri ", maliyyə hesabatlarının təsdiqi, mənfəətinin və zərərinin bölüşdürülməsi" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 iyun tarixli 2868 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 537; 2010, № 7, maddə 610; 2016, № 2 (II kitab), maddə 343) 2.2.6-cı yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "təsdiq edilməsi" sözlərindən sonra ", mənfəətinin və zərərinin bölüşdürülməsi" sözləri əlavə edilsin.

5. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 563; 2015, № 9, maddə 1009; 2016, № 2 (II kitab), maddə 336) 2.1.3-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

6. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 3 may tarixli 885 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 409; 2014, № 9, maddə 1027; 2016, № 2 (II kitab), maddə 341; 2017, № 8, maddə 1521, № 10, maddə 1847; 2018, № 3, maddə 463) 2.1.4-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

7. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində Hərbi Ovçuluq İttifaqının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyul tarixli 3017 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 848; 2016, № 2 (II kitab), maddə 346; 2019, № 5, maddə 817) 3.2.6-cı yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

8. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 26; 2016, № 2 (II kitab), maddə 348, № 3, maddə 448) 2.1.4-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

9. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 289 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 177; 2016, № 2 (II kitab), maddə 342) 3.1.4-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2014-cü il 8 may tarixli 442 nömrəli, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2015-ci il 11 fevral tarixli 1047 nömrəli, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2015-ci il 18 mart tarixli 1121 nömrəli, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" 2015-ci il 4 may tarixli 1206 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2015-ci il 10 sentyabr tarixli 1401 nömrəli, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2016-cı il 5 may tarixli 2032 nömrəli və "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1584-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 may tarixli 442 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 506; 2016, № 2 (II kitab), maddə 347; 2019, № 3, maddə 469) 2.2.2-ci yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

2. "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 179; 2016, № 2 (II kitab), maddə 338, № 8, maddə 1384; 2019, № 5, maddə 890) 3.2.5-ci yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

3. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 316; 2016, № 2 (II kitab), maddə 339; 2017, № 8, maddə 1521) 3.2.3-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

4. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1206 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 565; 2016, № 2 (II kitab), maddə 345) 1.1.3-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 sentyabr tarixli 1401 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 9, maddə 1043; 2016, № 2 (II kitab), maddə 344) 3.2.1-ci yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

6. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may tarixli 2032 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 901) 4.2.5-ci yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

7. "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1864; 2019, № 5, maddə 817) 6.1.6-cı yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2020-ci il*

## Azərbaycan qlobal proseslərə təsir edən nüfuzlu dövlətə çevrilir

*Əvvəli 1-ci səh.*

İlin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmış, ölkə ərazisində bütün kütləvi tədbirlər ləğv edilmiş, təhsil müəssisələrində tədris dayandırılmış, xüsusi karantin rejimi elan olunmuşdur. Koronavirus xəstələrinin müalicəsi üçün 20-dən artıq xəstəxana ayrılmış, virusun diaqnostikası və müalicəsi üçün zəruri testlər, tibbi avadanlıqlar, ləvazimatlar ölkəyə gətirilmiş, laboratoriyalar yaradılmış, qısa müddət ərzində qoruyucu və digər tibbi ləvazimatların istehsalına başlanılmışdır. Nəticədə xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasında müsbət dinamika əldə edilmiş və hazırda xüsusi karantin rejimindən çıxış planı mərhələli şəkildə həyata keçirilir. İqtisadi sabitliyi, məşğulluqla bağlı problemləri, makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün 3.5 milyard manatdan artıq və ya 2 milyard dollardan çox sosial-iqtisadi dəstək paketi qəbul olunmuşdur.

İlham Əliyev çıxışında iqtisadi məqamlara toxunaraq demişdir: "Ümumilikdə dövlət sektoru üzrə 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq iki ay ərzində vəsait ödənilir. İşsiz şəxslərin sosial müdafiəsi üçün ilin sonuna qədər 90 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulur. Banklar tərəfindən sahibkarlara yeni verilən kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir".

Eyni zamanda nəzərə çatdırılmışdır ki, bütün bunlar görülən işlərin bir hissəsidir və gələcəkdə digər mühüm addımların atılacağı nəzərdə tutulur. Bundan başqa, Azərbaycan pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatı üzv dövlətlərini dəstəkləmək üçün ÜST-ə əlavə olaraq 5 milyon dollar ianə ayırır. Beləliklə, Azərbaycan sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunu, beynəlxalq aləmdə oynadığı rolu artırmaq əzmində olduğunu bir daha nümayiş etdirir. Bunu nüfuzlu beynəlxalq qurumların rəhbərləri də çıxışlarında qeyd etdilər.

BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande bu mühüm tədbirə evsahibliyi etdiyinə görə İlham Əliyevə təşəkkürünü bildirmiş, artıq planetdə insanların 3,4 trilyon ABŞ dolları məbləğində gəlirlərini itirdiyini diqqətə çatdırmış, bütün planeti həmrəyliyə və sülhə səsləmişdir: "Biz, həmçinin istəyirik ki, bütün dövlətlər, millətlər arasında olan qeyri-bərabərsizlik aradan qaldırılsın. Bunun üçün biz daha güclü və dayanıqlı sistem yaratmalıyıq. Eyni zamanda biz görürük ki, inkişafda olan bir sıra ölkələrin borcları çox kəskin şəkildə artır. Bunlardan irəli gələrək bildirmək istəyirik ki, biz cari böhranın lap ortasındayıq. Bir çox ölkələr, həmçinin öz həllini tapmayan silahlı münaqişələrdən əziyyət çəkir, münaqişələr dayandırılmalıdır. Biz bununla bağlı BMT-nin Baş katibi adından qlobal miqyasda atəşkəsin təmin edilməsi üçün çağırış etmişik". Bütün ölkələri qarşılaşdığı çətinlikləri birgə dəf etməyə çağıran Ticani Məhəmməd-Bande BMT-nin Xartiyasına dəstək verdiklərinə görə Qoşulmama Hərəkatına dərin minnətdarlığını bildirmiş və bu təşkilatın gələcəkdə də beynəlxalq sülhə və təhlükəsizliyə, qanunun aliliyinə, ədalətə xidmət edəcəyinə əminliyini ifadə etmişdir.

BMT-nin Baş katibi Antonio Quterreş videomüraciətində bu görüşün təşkilatçılarına təşəkkürünü bildirmiş, pandemiyanı bəşəriyyət üçün ağır sınaq kimi qiymətləndirmişdir: "O, cəmiyyətlərimiz və iqtisadiyyatlarımızın sarsıntı qarşısında kövrəkliyini açıq nümayiş etdirdi və Dayanıqlı İnkişaf Məqsədlərinin icrasını təhdid edərək, dərin qeyri-bərabərliyi bütün çılpaqlığı ilə üzə çıxardı".

Antonio Quterreş üç təxirəsalınmaz prioriteti önə çəkmişdir: birincisi, pandemiyaya son qoymaq; ikincisi, onun sosial-iqtisadi təsirlərini aradan qaldırmaq; üçüncüsü, bərpa mərhələsindən faydalanaraq, daha güclü təməl üzərində hamının bacarıq və imkanlarından faydalanmaq.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Gebreyesus Qoşulmama Hərəkatının Təmas Qrupu qarşısında çıxış etmək imkanı yaratdığına görə Prezident İlham Əliyevə təşəkkür edərək, Azərbaycanın ÜST-ə verdiyi maddi və mənəvi dəstəyi yüksək qiymətləndirmişdir. O, həmçinin heç bir ölkənin öz resurslarından, pul imkanlarından asılı olmayaraq, pandemiyaya qarşı təkbaşına mübarizə apara bilməyəcəyini dilə gətirmiş, virusu isə sürətlə yayılan qatil adlandırmış, hamını qlobal həmrəyliyə çağırmışdır: " biz səylərimizi bütün cəmiyyət səviyyəsində müxtəlif sahələri əhatə edən, çoxtərəfli fəaliyyətə əsaslanan uzunmüddətli hazırlığa yönəltməliyik. Zati-aliləri, COVID-19 ilə mübarizədə nümayiş etdirdiyiniz liderlik və əzmkarlığınıza görə Sizə bir daha minnətdaram".

Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat çıxışında mövcud mərhələnin hamıdan güclü və birlikdə olmağı tələb etdiyini vurğuladı və rəhbərlik etdiyi qurumun adından pandemiyanın qarşısının alınması üçün özlərinin məxsusi strategiyalarının formalaşdığını diqqətə çatdırdı: "Biz beynəlxalq əməkdaşlığa hazırıq, buna açığıq. Biz tərəfdaşlarımızla birgə bu həmrəyliyin şahidi oluruq".

Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borel videomüraciətində əlaqələndirilmiş, çoxtərəfli yanaşmaya dəstək vermək üçün bu Zirvə görüşünü keçirdiyinə görə Qoşulmama Hərəkatının təşəbbüsünü alqışlayaraq, qlobal bərpa üçün yeni və innovativ tərəfdaşlığın vacibliyini vurğuladı və qeyd etdi ki, indi münaqişələrin qarşısının alınması, sülh quruculuğu və onun möhkəmləndirilməsi baxımından sülh və təhlükəsizlik gündəliyinin yenidən canlandırılması üçün fürsətdir.

Cozef Borel Ümumdünya Səhiyyə Təşkilatının və digər qlobal səhiyyə təşkilatlarının hərəkətə keçmək çağırışlarını alqışladığını, təhlükəsiz, keyfiyyətli, səmərəli və əlçatan diaqnostikaya, müalicəyə və koronavirusa qarşı peyvəndlərə ədalətli, universal və bərabər çıxışın təmin edilməsinin zəruriliyini belə vurğulamışdır: "Pandemiyaya qarşı birgə mübarizənin aparılması bərpa mərhələsində və pandemiyadan sonra daha səmərəli dünyanın qurulmasında güclü, çoxtərəfli əməkdaşlıq üçün əsas yol olacaq. Biz Avropa İttifaqı olaraq, bu məqsədlə bütün tərəfdaşlarla işləməyə hazırıq və işləməyi arzulayırıq".

Belə ağrılı günlərdə Bakı sülh mesajlarının qanadlandığı məkan kimi bütün planetin diqqətini cəlb etməklə Qafqazda 120 dövləti özündə birləşdirən yeni siyasi mərkəzin yarandığını sübut edir. Beləliklə, Azərbaycanın qlobal proseslərə təsir edən nüfuzlu dövlətə çevrilməsi göz önündədir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## *Hikmət HACIYEV:* "Azərbaycan COVID-19-a qarşı mübarizədə də təşəbbüskar dövlət kimi çıxış edir"

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda koronavirus pandemiyasına qarşı ciddi mübarizə aparılır.




Görülən işlər beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilir və Azərbaycan dünyada nümunə kimi göstərilir. Azərbaycan milli səviyyədə əldə etdiyi nailiyyətlərin davamı olaraq, qlobal səviyyədə gedən prosesləri də yaxından dəstəkləyir və COVID-19 virusuna qarşı mübarizədə də təşəbbüskar bir dövlət olaraq çıxış edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev mayın 13-də Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirusla bağlı keçirilən brifinqində bildirib.

"Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə çox qısa bir vaxt kəsimində, yəni, aprelin 10-da və mayın 4-də iki mötəbər Zirvə görüşü - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkətının onlayn Zirvə görüşləri keçirildi. Bütün bunlar Azərbaycan Respublikası tərəfindən qlobal həmrəyliyə, əməkdaşlığa verilən töhfələrdir.

***

Prezidentin köməkçisi deyib ki, Azərbaycan Macarıstan, Pakistan, Bosniya və Herseqovina, Tacikistan, Qırğızıstan və digər ölkələrə maddi və humanitar yardımlar göstərib. Hazırda Serbiyaya və fələstinli qaçqınlara da yardımların göstərilməsi istiqamətində işlər aparılır. Bütün bunlar Azərbaycanın koronavirusla mübarizəyə beynəlxalq səviyyədə göstərdiyi mühüm dəstəkdir.

## *Prezidentin köməkçisi:* "Mayın 18-31-də xaricdə olan azərbaycanlılar xüsusi çarter reysləri ilə Azərbaycana gətiriləcək"

Mayın 18-31-də xaricdə olan azərbaycanlılar xüsusi çarter reysləri ilə Azərbaycana gətiriləcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev mayın 13-də Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirusla bağlı keçirilən brifinqində bildirib. Prezidentin köməkçisi qeyd edib ki, xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəyə gətirilməsi istiqamətində tədbirlər davam etdirilir.

"Evə gedirəm" portalına müraciət edən 540-dan çox Azərbaycan vətəndaşının Rusiyadan gətirilməsi təmin edilib. Digər ölkələrdən də çoxlu sayda Azərbaycan vətəndaşı ölkəmizə gətirilib. MDB və Avropa ölkələrindən Azərbaycana çarter reysləri həyata keçiriləcək. H.Hacıyev bildirib ki, ümumilikdə indiyə qədər xaricdə olan 20 minə yaxın vətəndaş ölkəyə gətirilib.

***

Mayın 5-də quru sərhədi vasitəsilə 94 vətəndaşımızın İrandan Azərbaycana keçidi təmin olunub.

Hikmət Hacıyev deyib ki, mayın 7-də İstanbuldan 212 vətəndaş ölkəyə gətirilib. Mayın 8-də Daşkənddən 50, mayın 11-də Baltikyanı ölkələrdən 52 vətəndaşımızın, mayın 12-də Rusiyada təhsil alan azərbaycanlıların ölkəyə gətirilməsi təmin edilib. 124 vətəndaşımızın Minskdən gətirilməsi həyata keçirilib. Mayın 14-də isə Kiyevdən də vətəndaşlarımızın ölkəyə gətirilməsi nəzərdə tutulur. Ölkəyə gətirilən şəxslər karantin müəssisələrinə yerləşdirilir və lazımi yardım göstərilir.

## Beynəlxalq səviyyədə təqdir olunan siyasət

### İlham ƏLİYEV: "Ən böyük qiyməti Azərbaycan xalqı verir"

*Əvvəli 1-ci səh.*

Bu koronavirusla mübarizəyə mühüm töhfədir və ölkəmizin bu sahədə asılılığını aradan qaldırır. Eyni zamanda koronavirus pandemiyası şəraitində yeni iş yerlərinin yaradılması mütərəqqi sosial siyasətin təsdiqidir. İlk mərhələdə fabrikdə gün ərzində 140 min ədəd maska istehsalı nəzərdə tutulur. May ayının sonunadək burada əlavə avadanlıq quraşdırılacaq. Bu isə, öz növbəsində, istehsal gücünü artırmağa imkan verəcək. Hazırda istehsalat prosesinə cəlb olunmuş işçilərin sayı 30 nəfərdir, əlavə avadanlıq quraşdırıldıqdan sonra isə 50 nəfərə çatacaq. Qoruyucu kombinezonun istehsalı prosesinə isə 210 işçi cəlb olunub.

Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Bu baxımdan Sumqayıtda tibbi maska istehsalı müəssisələrinin fəaliyyətə başlaması, ilk növbədə, Azərbaycanda dövlət səviyyəsində əhalinin sağlamlığının qorunması məsələsinə yüksək dərəcədə həssaslıqla yanaşıldığını göstərir.

Ən əsası, Azərbaycanın koronavirusa qarşı mübarizə sahəsində həyata keçirdiyi fəaliyyət kifayət qədər mütərəqqi təcrübənin formalaşmasına gətirib çıxarıb. Çünki başlıca məsələ vətəndaşların sağlamlığıdır ki, bu sahədə də ölkəmizin nəticələri kifayət qədər yüksəkdir. Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir ki, Azərbaycan öz vətəndaşlarını koronavirusdan layiqincə qoruyur. Görünən odur ki, respublikamız bu qlobal problemin öhdəsindən layiqincə gələcək, bundan sonra da öz inkişafını uğurla təmin edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# REGİONLAR





**Ötən il Lənkəranda aqrar sahədə çalışanlar üçün uğurlu keçib. Ümumilikdə rayon üzrə 80 min 486 ton tərəvəz, 3 min 786 ton kartof, 1402 ton taxıl, 19 min 342 ton meyvə, 281,6 ton yaşıl çay yarpağı tədarük olunub. Heyvandarlıq məhsullarının istehsalı artmaqla diri çəkidə 6 min 838,7 ton ət, 34 min 785 ton süd, 19,1 milyon ədəd yumurta istehsal edilib.**

## Əkinçilər bütün səylərini ərzaq bolluğuna yönəldiblər

Dövlət proqramına müvafiq olaraq qabaqcıl texnologiyalar tətbiq etməklə rayonda çay, çəltik və sitrus meyvələri istehsalının artırılması istiqamətində də işlər xeyli sürətləndirilib. Çay plantasiyaları genişləndirilərək 628,5 hektardan 640,5 hektara çatdırılıb. Bunun da 468 hektarı son dövrlərdə salınmış yeni çay plantasiyalarıdır. Son iki ildə təkcə "Beta" şirkəti tərəfindən Osaküçə kəndindəki çay sahələri genişləndirilərək 50 hektara çatdırılıb.

İstifadəsiz qalmış kənd təsərrüfatına yararlı torpaqları əkin dövriyyəsinə cəlb etməklə rayon üzrə ötən il 852 hektar sahədə çəltik əkini keçirilib və bunun hesabına 3 min 418 ton yüksək keyfiyyətli məhsul yığılıb. Təkcə "Green East" MMC tərəfindən Viravul və Girdəni kəndlərində müasir texnologiya ilə əkilmiş 100 ha çəltik sahəsindən yüksək məhsuldarlıq əldə edilib.

"Fruit Garden" MMC tərəfindən rayonun Separadi kəndi ərazisində 150 hektar sahədə müasir texnologiya əsasında sitrus bağı salınıb, burada damcı üsulu ilə yeni suvarma şəbəkəsi, eləcə də respublikada ilk dəfə olaraq şaxtanın təsirini azaldan "Donqoruyucu Pərvanə" mexanizmi quraşdırılıb. Ötən il rayon üzrə ümumilikdə fermer və sahibkarlara məxsus 1434 hektar sitrus və subtropik meyvə bağından 14 min 341 ton məhsul yığılıb.

Xüsusi karantin rejiminə baxmayaraq, lənkəranlı əkinçilərin əl-ayağı bu gün işgücdən əsla soyumayıb. Kənd təsərrüfatı məhsullarının istehsalı onlar üçün prioritet məsələlərdən birinə çevrilib. Torpaq adamları becərdikləri məhsulları karantin rejimi dövründə bazara çıxarmaqda heç bir məhdudiyyətlə qarşılaşmırlar.

Hazırda rayonda yaz-tarla işlərinin qızğın çağıdır. Ötən il qazandıqları uğurlardan ruhlanan rayon sakinləri bu gün böyük ruh yüksəkliyi ilə sahələrə çıxaraq daha yüksək göstəricilər əldə etmək uğrunda mübarizə aparırlar.





Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik şöbəsinin baş məsləhətçisi İlqar Həsənovdan aldığımız məlumata görə, cari il üçün rayonun fərdi və fermer təsərrüfatlarında 900 hektarda çəltik əkininin keçirilməsi nəzərdə tutulub. Əkin keçiriləcək sahələr artıq tam hazır vəziyyətə gətirilib. Mayın 10-dan isə çəltik əkininə start veriləcək.

Sitrusçular plantasiyalarda xəstəlik və ziyanverici həşəratlara qarşı kimyəvi dərmanlama işləri ilə məşğuldurlar.

Rayonda çayçılığın inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilir. Bu sahədə bir sıra fermer təsərrüfatları yaradılıb. Onlardan biri də İstisu qəsəbəsindəki "Yaşıl çay" fermer təsərrüfatıdır. Biz təsərrüfatda olarkən burada yaşıl çay yarpağının yığımının şahidi olduq. Təsərrüfatın rəhbəri Araz Yağubovla söhbətdən məlum oldu ki, 2006-cı ildə yaradılan fermer təsərrüfatının 150 hektara yaxın torpaq sahəsi var. 2011-ci ildən başlayaraq burada yüksək məhsuldarlığı ilə seçilən "Kolxida" sortundan ibarət çay plantasiyaları salınıb. Təsərrüfatın ümumi çay əkini sahəsi isə 70 hektardır. Plantasiyalara qulluq zamanı kimyəvi vasitələrdən istifadə edilmir. Mineral gübrələr əvəzinə üzvü gübrələrdən daha çox istifadə olunur.

Təsərrüfat rəhbərinin sözlərinə görə, yığılan ətirli məhsul "Premium gold" çay sortu adlanır və ən yüksək keyfiyyəti ilə seçilir.

- Yığdığımız məhsul öz mini emal seximizdə istehsal olunur, - deyə A.Yağubov bildirdi. - Çay yarpağını intensiv üsulla dəririk. Əvvəllər ayda bir dəfə dərilirdisə, indi may ayından sentyabradək hər gün yığım aparılır. Yerli bazarda satış qiyməti 8-100 manat arasında dəyişir. Məqsədimiz, ilk növbədə, yerli bazarı çayla təmin etməkdir. Buna baxmayaraq, xarici ölkələrdən də sifarişlər daxil olur. Hazırda yığımını apardığımız "Premium gold" çayını xarici bazar üçün xüsusi hazırlayırıq və onların da qiyməti 500-2000 manatadəkdir. Bu çaylar səhər saat 6-da gün işığı düşməmiş yığılır və xüsusi texnologiya ilə istehsal edilir.

A.Yağubovla söhbətdən onu da öyrəndik ki, çayçılığın inkişafı ilə bağlı dövlət proqramı çərçivəsində rəhbərlik etdiyi fermer təsərrüfatı plantasiyaların ərazisini 2027-ci ilədək 120 hektara çatdırmağı planlaşdırır. Təsərrüfatda çay əkini əsasən yapon texnologiyası ilə aparılır. Bu texnologiya həm də məhsuldarlığa öz təsirini göstərir.

Rayonun üzüm bağlarında quru budama işləri artıq başa çatmaq üzrədir.

Lənkəranlı kümçülər bu il də yüksək məhsuldarlıq əldə etmək əzmindədirlər. Yaxın günlərdə rayona 250 qutu barama qurdu gətirilərək ayrı-ayrı təsərrüfatçılara paylanacaqdır.

Rayonun Şağlakücə, Cil, Xarxatan, Vilvan və digər kəndlərində fərdi təsərrüfat sahibləri yetişdirdikləri xiyar, çiyələk və kartof məhsullarını bazara çıxarmağa başlayıblar.

Bir sözlə, bütün işlərini karantin qaydalarına uyğun davam etdirən Lənkəran əkinçiləri ölkədə ərzaq bolluğu üçün töhfələrini əsirgəmirlər.

***Ağəddin BABAYEV,***
***Lənkəran rayonu***

## 9 min hektardan çox sahədə pambıq əkilib

Sabirabadda çiyid səpini başa çatıb. Ötən il 25 min 210 ton xam pambıq istehsal edən Sabirabadın "ağ qızıl" ustaları cari ildə də yüksək əhvali-ruhiyyə ilə çalışırlar.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, bu mövsüm Sabirabadda 9 min 389 hektar sahədə pambıq becərilməsi nəzərdə tutulub. Bunun üçün 2 min 517 torpaq mülkiyyətçisi ilə müqavilə bağlanılıb, şum, arat, malalama işləri vaxtında həyata keçirilib, sahələrə üzvi gübrələr verilib, səpin üçün yüksək reproduksiyalı toxum tədarük olunub. Səpinə mütəşəkkil başlayan mülkiyyətçilər qısa müddətdə 9 min 344 hektar sahəyə çiyid səpiblər ki, bu da nəzərdə tutulduğundan 115 hektar çoxdur. İlkin səpin aparılmış 5 min 537 hektar sahədə normal bitiş alınıb. Səpin aparılan sahələrin 3 min 47 hektarı "MKT" MMC-yə, 3 min 357 hektarı "AZƏR PAMBIQ" MMC-yə, 710 hektarı "Aqro AZ" MMC-yə, 2 min 230 hektarı isə "P-Aqro"ya məxsusdur.



Rayonun Moranlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə fəaliyyət göstərən fermerlər ötən il olduğu kimi, bu il də pambıq səpinində fərqləniblər. Onlar iki min hektardan çox sahədə pambıq əkərək səpini rayonda birinci başa çatdırıblar.

Qeyd edək ki, bu il Sabirabadda 30 min tondan çox pambıq istehsalı nəzərdə tutulub.

## Bozalqanlı kəndində 1200 şagird yerlik yeni məktəb binası tikilir



Respublikamızın bütün bölgələrində olduğu kimi, Tovuz rayonunda da təhsil infrastrukturunun və maddi-texniki bazanın müasirləşdirilməsi, ümumilikdə isə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni məktəb binaları tikilir, bir çox məktəblər əsaslı təmir edilir.

Hazırda Tovuz rayonunun Yusif Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbi üçün də 1200 şagird yerlik yeni məktəb binası tikilir.

Məktəbin tikintisinə 2019-cu ilin iyun ayında başlanılıb. Məktəb binası üçmərtəbəli 6 korpusdan, 64 sinif otağından, fənn kabinetləri, laboratoryalar, idman və akt zalından ibarət olacaq. Binanın həyətində futbol, voleybol, həndbol və basketbol meydançaları yaradılacaq. Hazırda məktəb kompleksinə elektrik, rabitə xətləri çəkilir, digər kommunikasiya sistemləri quraşdırılır.

## Təsərrüfatlarda 2520 arı ailəsi saxlanılır

Arıçılıq Samux rayonu üçün ənənəvi sahələrdən hesab olunur. Hazırda rayonda 2520 arı ailəsi mövcuddur. Bunun 2425-i və ya 96,2 faizi əhali təsərrüfatlarında saxlanılır.

Samux Rayon Statistika İdarəsindən bildirilib ki, son 4 ildə arı ailələrinin sayı 2096 ədəd artıb. Qeyd edilib ki, bu artımın səbəbi "Arıçılığın inkişafına dəstək layihəsi" əsasında əhali təsərrüfatlarındakı arı ailələrinə və 2018-ci ildən arıçılığın inkişaf etdirilməsi məqsədilə subsidiyaların verilməsi ilə bağlıdır. Həm dövlət tərəfindən göstərilən dəstəyə, həm də münasib iqlim şəraitinə və zəngin florasına görə Samux rayonunda arıçılıq ildənilə inkişaf edir. Həmçinin maya dəyəri az, gəliri isə çox olduğuna görə arıçılıqla məşğul olan əhali təsərrüfatlarının bu sahəyə marağı artmaqdadır. İndi rayonda arıçılıq məhsullarından həm qida, həm də müalicə məqsədilə geniş istifadə edilir.

## 6 ton yaş barama istehsal ediləcək

**"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Prezident İlham Əliyevin 2017-ci il 27 noyabr tarixli sərəncamı ölkəmizdə baramaçılığın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.**

Dövlət başçısının baramaçılığın inkişafı ilə bağlı qarşıya qoyduğu konkret vəzifələrin icrası istiqamətində son illər Qazaxda da ardıcıl tədbirlər həyata keçirilib və uğurlu nəticələr əldə olunub. Belə ki, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi Qazax rayonunda ənənəvi sahələrdən olan baramaçılığın dirçəldilməsinə öz təsirini göstərib. Təsadüfi deyil ki, son illər rayonda təsərrüfatın bu gəlirli sahəsinə maraq göstərənlərin sayı xeyli artıb. Bu il artıq beşinci ildir ki, Qazaxda ipəkqurdu bəslənilir.

AZƏRTAC xəbər verir ki, cari ildə kümçülər tərəfindən 6 ton yaş baramanın istehsalı nəzərdə tutulub.

Rayonun Alpout, Aşağı Salahlı, Aslanbəyli, Birinci Şıxlı, Çaylı, Cəfərli, Daş Salahlı, Dəmirçilər, Hüseynbəyli, Kəmərli, Kosalar, Orta Salahlı, Qaymaqlı, Xanlıqlar, Yuxarı Salahlı kəndləri üzrə barama yetişdirən kümçülərə 150 qutu ipəkqurdu toxumu paylanılıb.

Kümçülər bildiriblər ki, ipəkqurdu toxumunu yetişdirmək üçün əvvəlcədən bütün hazırlıq işləri görülüb, otaqlar lazımi istiliklə təmin edilib. Hər il məhsulun bəhrəsini görən kümçülər cari ildə də mütəxəssislərin məsləhətindən yararlanaraq daha çox məhsul istehsal etməyi qarşıya məqsəd qoyduqlarını deyiblər.



## Qəsəbələrdə yollar təmir edilir



**Prezident İlham Əliyev Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışı zamanı xüsusi vurğulayıb ki, bu gün Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye şəhəridir:**

"Vaxtilə Sumqayıt yaradılanda Sovet İttifaqının kimya sənayesinin mərkəzi kimi nəzərdə tutulurdu və bu funksiyanı yerinə yetirirdi. Ancaq sumqayıtlılar yaxşı bilirlər ki, ekoloji vəziyyətə çox böyük zərbə vurulmuşdu. Sumqayıt ekoloji fəlakət zonası idi və Sovet İttifaqı məkanında bəlkə də ekoloji baxımdan ən çirklənmiş şəhərlərdən biri idi. Bu gün isə Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərlərindən biridir".

Ölkə Prezidenti Sumqayıta daim diqqət və qayğı göstərir. Bu yaxınlarda dövlət başçısının sərəncamına əsasən, Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan AAYDA-ya (Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi) 6,4 milyon manat ayrılıb.

Layihə çərçivəsində Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 135 min nəfər əhalinin yaşadığı Sumqayıt şəhərinin Corat, Hacı Zeynalabdin Tağıyev qəsəbələrində, 21-ci mikrorayon ərazisində, həmçinin "Yaşıl Dərə", "Qurd Dərəsi", "Xəzər bağları" yaşayış massivlərində və 5 məhəllədə ümumi uzunluğu 21,4 kilometr olan küçə və yolların təmirinin həyata keçirilməsi nəzərdə tutulurdu. Bu günlərdə həmin ərazilərdə təmir işlərinə başlanılıb. Ümumilikdə təmir işlərinin əhatə edəcəyi sahə 150 min kvadratmetrdir.



Hazırlanan layihələrə uyğun olaraq hazırda 18-21-ci məhəllələrin daxili yollarında və 21-ci mikrorayon ərazisində yerləşən küçələrdə təmir-tikinti işləri həyata keçirilir. Sözügedən ərazilərdə aparılan əsaslı təmir işləri 5,8 kilometr uzunluğa malik küçə və yolları əhatə edir. Burada aparılan işlərin sahəsi 40 min kvadratmetrdir.

Mayın əvvəllərində təmir-tikinti işlərinə Corat qəsəbəsinin 3,6 kilometr uzunluğa malik küçələrində başlanılması nəzərdə tutulur. 25 min kvadratmetr sahəni əhatə edəcək küçələr qəsəbənin əsas ərazilərini şəhərlə birləşdirəcək və maşınların rahat gediş-gəlişi üçün standartlara uyğun şərait yaradılacaq.

Sumqayıt şəhəri üzrə qeyd olunan ərazilərdə təmir işlərinin həcmi ilkin olaraq ayrılmış vəsait hesabına aparılır. Növbəti mərhələlərdə sərəncam və investisiya proqramı ilə ayrılacaq vəsaitə uyğun, agentlik tərəfindən şəhər üzrə ehtiyacı olan digər küçə və yollarda da yenidənqurma işlərinin aparılması nəzərdə tutulur. Şəhər sakinləri isə onlara göstərilən diqqət və qayğını öz əməkləri ilə doğruldacaqlarını bildirirlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## 15 min hektardan çox sahədə yazlıq bitki əkini aparılıb



Saatlıda cari ilin məhsulu üçün yazlıq bitki əkini davam edir. Rayonun statistika idarəsindən bildiriblər ki, əkinə mütəşəkkil başlayan məhsul istehsalçıları indiyədək 15 min 109.7 hektar sahədə yazlıq bitkilər əkini aparıblar ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 80 hektar çoxdur. Əkin aparılmış sahələrin 1609 hektarını təzə yonca, 309 hektarını kartof, 683 hektarın tərəvəz, 1955 hektarını bostan bitkiləri, 54.5 hektarını şəkər çuğunduru, 14 hektarını günəbaxan, 14 hektarını soya, 186 hektarını qarğıdalı, 32 hektarını isə dənli paxlalı bitkilər təşkil edir. Həmçinin rayonda fəaliyyət göstərən pambıq emalı müəssisələri ilə bağlanmış müqavilə əsasında 13 min 616.2 hektar sahədə pambıq əkilib. Yaxın günlərdə rayonda çiyid səpini başa çatacaq.

## İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı 30,7 faiz artıb

Həyata keçirilən uğurlu iqtisadi siyasət, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində cəbhə bölgəsində yerləşən Tərtər rayonunun da sosial-iqtisadi göstəriciləri yüksəlib, rayon iqtisadiyyatının dinamik inkişafı təmin edilib.

Tərtər Rayon Statistika İdarəsindən bildiriblər ki, 2020-ci ilin birinci rübündə rayonda iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 39 min 565,7 min olub. Bu, ötən ilin müvafiq dövrünə nisbətən 30,7 faiz çoxdur. Məhsul və xidmətlərin 55,9 faizi istehsal sahələrinin, 44,1 faizi xidmət sahələrinin payına düşüb.

2020-ci ilin ilk 3 ayında 1802,3 min manatlıq sənaye, 8077,6 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, 12 milyon 245,7 min manatlıq tikinti-quraşdırma işləri görülüb, 16 milyon 656,2 min manatlıq ticarət və xidmət sahəsində, 596,9 min manatlıq nəqliyyat və anbar təsərrüfatı, 187 min manatlıq informasiya və rabitə xidmətləri göstərilib.

***AZƏRTAC***

# Biz birlikdə güclüyük!

## Nə özünüzü xəstələndirin, nə də başqalarını

Hazırda dünyanın tanınmış tibb alimləri, dövlət xadimləri koronavirus pandemiyasını xəstəlikdən çox kabus adlandırırlar. Çünki dünya indiyədək belə sürətlə yayılan, müalicəsi çətin olan, müxtəlif formalarda təzahür edən xəstəliklə qarşılaşmamışdır. Tibb elminin yüksək inkişaf etdiyi bir dövrdə heç kəs bu xəstəliyin qarşısını necə almaq lazım olduğunu bilmir. Təsəvvür edin, ətraf aləmlə əlaqəsi olmayan sualtı qayıqda belə koronavirus xəstəliyi peyda olub.

Son vaxtlar bəziləri bu xəstəliyin ötüb-keçdiyini fikirləşsə də, əslində, belə deyil. Koronavirus pandemiyası hələ də dünyanı kabus kimi dolaşaraq gündə minlərlə can alır. Artıq bir həqiqət də məlum olur ki, bu xəstəliyin özündən çox insanların laqeydliyi daha təhlükəlidir. Belə ki, insanların xəstəlikdən qorunmaq üçün lazımi qaydalara əməl etməməsi koronavirus üçün geniş meydan açır. Hələ də dünyada və ölkəmizdə bu xəstəliyin təhlükəli olduğunu qəbul etməyənlər çoxdur. Ən dəhşətlisi isə odur ki, dünyada bu qədər insanın ölümünü televiziya ekranlarından seyr edənlər belə bir xəstəliyin mövcud olmadığını sübut etməyə çalışırlar.

Həkimlər, dövlət başçıları əhaliyə ciddi xəbərdarlıq etmələrinə baxmayaraq, insanlar adət etdiyi yaşam tərzindən ayrılmaq istəmir, bu üzdən də karantin qaydalarını pozurlar. Hazırda COVID-19-un səbəbini araşdıran həkimlər onun daha qorxulu olan ikinci-üçüncü dalğasının gələ biləcəyi barədə xəbərdarlıq edirlər. Bir çox dövlətlər bu bəlanın qarşısının alınması üçün müvafiq tədbirlər görürlər. Azərbaycan dövlətinin gördüyü işlər isə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilir. İstər dünyada, istərsə də ölkəmizdə insanlar karantin rejimi qaydalarına əməl etməsələr, görülən tədbirlərin elə böyük bir əhəmiyyəti olmayacaq. Bu xəstəliyə qarşı mübarizə aparmaq üçün dövlət-vətəndaş həmrəyliyinə böyük ehtiyac var.

Prezident İlham Əliyev COVID-19-un ölkəmizə gəlişini gözləmədən Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaq üçün bütün tədbirləri gördü. Mövcud xəstəxanalar bu bəla ilə mübarizəyə hazırlandı. Onlar zəruri avadanlıqlarla, xəstəliyi tez bir zamanda aşkarlayan laboratoriyalarla təchiz edildi. "Yeni klinika" vaxtından əvvəl istifadəyə verildi ki, burada koronavirusa yoluxanlar yüksək səviyyədə müalicə olunsunlar. Bununla yanaşı, tibbi maska və dezinfeksiyaedici maddələrin ölkədə istehsalı təşkil edildi. Dövlət başçısının məqsədi əhalinin bu vasitələrə olan tələbatını ödəməklə onların sağlamlığını qorumaq idi.

Dünya alimlərinin yekdil fikri belədir ki, bu xəstəlik uzun çəkəcək və qarşıda bizi daha qorxulu ikinci-üçüncü dalğa gözləyə bilər. Azərbaycan vətəndaşının sağlamlığının dövlət üçün hər şeydən üstün olduğunu bəyan edən Prezident İlham Əliyev buna da ciddi şəkildə hazırlıq görür. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bunları yüksək qiymətləndirərək Azərbaycanın dünya üçün nümunəvi ölkə olduğunu bildirir. Digər beynəlxalq təşkilatlar da Prezident İlham Əliyevin ölkədə və dünyada koronavirusla mübarizə üçün gördüyü işləri təqdir edir.

Dövlət başçısının ölkə üzrə əlavə 10 modul tipli xəstəxananın tikilməsi barədə qəbul etdiyi qərar iki mühüm faktordan qaynaqlanır. Birincisi, əsas məqsəd vətəndaşların həyatını, sağlamlığını qorumaqdır. İkincisi isə, pandemiyanın qorxunc ikinci və üçüncü dalğasına hazırlıq görməkdir. Bu barədə Prezident İlham Əliyev mayın 7-də Bakıda modul tipli ilk xəstəxananın açılışında demişdir: "Bizim atdığımız bütün addımlar qabaqlayıcı xarakter daşıyır. Bu xəstəxananın və bundan sonra buna oxşar 9 xəstəxananın istifadəyə verilməsi 1-2 ay ərzində nəzərdə tutulub. Bütün bu addımlar qabaqlayıcı xarakter daşıyırdı və məhz buna görə hesab edirəm ki, koronavirusla mübarizədə biz birinci mərhələdə qalib gələ bilmişik. Ancaq mübarizə davam edir, koronavirus heç bir yerə qeyb olunmayıb, dolaşır və dolaşacaq və bunu hər kəs bilməlidir"

Bununla da dövlət başçısı vətəndaşlara həm çağırış, həm də ciddi xəbərdarlıq etmişdir. Beləliklə, Prezident açıq şəkildə bildirmişdir ki, biz əlimizdən gələni edirik, əhali də bu işdə məsuliyyətli olmalıdır.

Xatırladaq ki, dövlətin gördüyü zəruri tədbirlər sayəsində koronavirus pandemiyası əvvəldən nəzarət altına alındı. Beləliklə, yoluxma halları kəskin şəkildə aşağı düşməyə başladı, sağalanların sayı isə sürətlə artdı. Odur ki, insanların karantin qaydalarına əməl etmək şərti ilə aprelin 27-də və mayın 4-də yumşaq karantin rejimi qüvvəyə mindi. Təəssüf ki, bəzi vətəndaşlarımız dövlətin atdığı bu vacib addımı düzgün qiymətləndirmədi. Kütləvi şəkildə karantin qaydalarını pozmağa başladılar. Belə ki, maskalardan istifadə halları kəskin azaldı, sosial məsafə saxlanılmadı, insanların sıx olduğu yerlərdə və ictimai nəqliyyatda karantin rejiminin tələblərinə əməl olunmadı. Bu məsuliyyətsizliyin nəticəsini çox gözləmək lazım gəlmədi. Ölkə üzrə koronavirusdan yoluxma halları yenidən artmağa başladı. Vəziyyətin ciddiliyini görən Prezident İlham Əliyev hansısa məsuliyyətsiz vətəndaşlara görə insanların həyatının risk altına düşməsinə imkan verməyəcəyini bildirərək demişdir: "Son 2-3 gündə xəstələnənlərin sayı sağalanların sayından çoxdur və əgər bu dinamika kəskin artarsa, - mən bunu açıq demək istəyirəm və hər kəs bunu bilsin, - biz məcbur olub karantin rejimini əvvəlki vəziyyətə gətirəcəyik, sərtləşdirəcəyik, qaydaları pozanlara qarşı da daha ciddi cəza tədbirləri görüləcək ki, biz vəziyyəti daim nəzarətdə saxlayaq".

Dövlət vətəndaşların sağlamlığını qorumaq üçün lazım olan bütün tədbirləri görür. Lakin hər şey dövlətdən asılı deyil. Bu işdə vətəndaşların karantin rejiminə əməl etməsi mühüm rol oynayır. Bir insan öz canına qəsd edirsə, ona intihar edən, başqasını öldürənə isə qatil deyirik. İndi gəlin, özümüzü yoluxdurub intihar edən və başqasını yoluxdurub qatil olmayaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Laqeydlik koronavirusun ikinci dalğasının başlanmasına səbəb ola bilər

Dünyanı lərzəyə salan koronavirus (COVID-19) xəstəliyi cari ilin mart ayından Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dünyada pandemiya elan olunandan Azərbaycanda dərhal qabaqlayıcı tədbirlərlə bərabər az sonra karantin rejimi tətbiq edildi.

İki aydan artıqdır ki, bu gözəgörünməz xəstəliklə dövlət səviyyəsində ciddi mübarizə aparılır. Ölənlər də var, müalicə olunub həyata qaytarılanlar da. Amma ən başlıcası, dövlətin "Evdə qal!" çağırışına əməl etməklə hər kəsin bu bəladan özünü qorumasıdır.

Bu, xüsusilə yaşı 65-dən yuxarı insanlara aiddir. Hər gün boş vaxtını, istirahətini bir-iki saatlığa gəzintidə keçirən yaşlılar üçün nə qədər çətin olsa da, səbirli olmalıdırlar, hər kəsə nəsib olmayan qocalığı bu virusun güdazına verməyə dəyməz. Görünən odur ki, günlər ötdükcə bir çox dövlətlər, o cümlədən Azərbaycan hökuməti mövcud məhdudiyyətləri sanitar-epidemioloji vəziyyətə uyğun olaraq yumşaldır, karantin rejimindən mərhələli çıxış mexanizmləri tətbiq edir, bəzi ölkələr isə vəziyyətin hələ də ciddiliyini nəzərə alaraq sərt karantin rejimini davam etdirirlər. Respublikamızda Nazirlər Kabinetinin 2020-ci il 18 aprel tarixli qərarı ilə ölkə ərazisində tətbiq olunan xüsusi karantin rejiminin müddəti uzadılıb. COVID-19 virusu ilə bağlı hazırkı sanitar-epidemioloji vəziyyət, xüsusilə xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı, onlar arasında virusa yoluxma hallarını təhlil edilib və 2020-ci il 27 aprel tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verilib.

Amma təəssüflər olsun ki, bəzi insanlar xüsusi karantin rejiminin yumşaldılmasını koronavirus təhlükəsinin sovuşduğu kimi başa düşür, əvvəlki vaxtlarda olduğu kimi həyat tərzi keçirməyə çalışırlar. Laqeydliyə yol vermək olmaz, başa düşmək lazımdır ki, dünya, o cümlədən Azərbaycan bu bəladan hələ tam qurtulmayıb. Karantin rejimindəki məhdudiyyətlərin bəzisi aradan qaldırıldığı üçün əhali arasında virusa yoluxmada artım olarsa, qaydalarına əməl etməyə səbrimiz çatmadığı bu prosesin ikinci dalğası başlaya bilər. Hamı bilməlidir ki, COVID-19 xəstəliyi uzunmüddətli prosesdir. Ona görə də mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi vacibdir. Bu məqsədlə gigiyena qaydalarına daha ciddi riayət olunmalı, davam etdirilən özünütəcrid, "Evdə qal!" kampaniyasına hər bir kəs, xüsusən yaşı 65-dən yuxarı olan vətəndaşlar dəstək verməlidir. Xüsusi karantin rejimindəki mövcud məhdudiyyətlərin sanitar-epidemioloji şəraitdən asılı olaraq mərhələli yumşaldılması zəruridir. Amma epidemioloji vəziyyət tələb edərsə, yəni xəstəliyin dinamikasında artım olarsa, karantin rejiminin yenidən sərtləşdirilməsi qaçılmazdır. Müvafiq məhdudiyyətlər yenidən tətbiq oluna bilər. Bu səbəbdən indiki vəziyyətdə hər şey vətəndaşların özündən asılıdır. Müəyyən məhdudiyyətlər götürülsə də, hamı bilməlidir, əgər insanlar profilaktik tədbirlərə, sanitar normalara uyğun davranmasa, yoluxma halları çoxala bilər. Bu zaman onun qarşısını almaq üçün ölkədə mütləq əvvəlkindən də ciddi tədbirlər həyata keçiriləcək. Vətəndaşlar isə buna əməl etmək məcburiyyətində olacaqlar.



Mövzuya münasibət bildirən Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinski deyir ki, aprelin 27-dən sonra karantin rejiminin yumşaldılması ilə əlaqədar əhalidə koronavirus təhlükəsinin sovuşduğu barədə yaranmış təsəvvür yanlış olmaqla bərabər, həm də təhlükəlidir. Müşahidələrdən hiss olunur ki, müəyyən qisim insanlar problemin ciddiliyinə laqeyd yanaşırlar, kifayət qədər dərk etmirlər ki, gözəgörünməz ölüm onun varlığının bir addımlığındadır, ona görə heç olmasa iki addım məsafə saxlamaq, qaydalara riayət etmək mütləqdir: "Dünya ölkələrində pandemiya ilə bağlı prosesləri izlədikdə və aparılan tədbirləri nəzərə aldıqda, görürük ki, tam rahatlanmaq üçün əsas yoxdur. Əksinə, laqeydlik daha da ciddi fəsadlara səbəb ola bilər. İndiyədək heç bir ölkədə koronavirusa qarşı vaksin icad olunmayıb və ən optimist mütəxəssislər belə yaxın bir ildən tez bunu gözləmirlər. Ona görə də vətəndaşlarımız Azərbaycan Prezidenti İlham Əliyevin, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tövsiyələrinə, çağırışlarına cavab olaraq, Nazirlər Kabineti yanında Operativ Qərargahın tapşırıqlarına, özünütəcrid və gigiyenik qaydalara riayət edərək koronavirusla mübarizəyə öz dəstəklərini verməlidirlər. Əks halda bu, özünün və yaxınlarının həyatını risk altında qoymaq deməkdir. Belə olarsa, hökumət karantin rejimini uzatmaq məcburiyyətində qalacaq. Bu isə cəmiyyətin normal həyata qayıtmasında çətinlikləri müəyyən qədər uzadacaq".

Bakının Nərimanov rayonunun sakini, 73 yaşlı Eldar Cəbrayılov da təəssüflə bildirir ki, aprelin 27-də xüsusi karantin rejiminin yumşaldılmasından sonra əhali arasında xeyli arxayınlaşma, hətta bəzilərində virus təhlükəsinin ötüb keçməsi anlamı hiss olunur: "Son günlər küçə və yollarda xeyli maskasız adam görürəm. Mütəxəssislərin fikrincə, COVID-19 elə növ virus infeksiyasıdır ki, onunla mübarizədə arxayınlaşmaq, hər şeyin ötüb keçdiyini düşünmək faciələrə səbəb ola bilər. Doğrudur, respublikamızda görülən qabaqlayıcı tədbirlər nəticəsində digər ölkələrlə müqayisədə epidemiyanın miqyası böyük olmadı. Bu, nikbinlik üçün əsas versə də, arxayınlaşmaq olmaz".

Nərimanov rayonundakı 8 nömrəli poliklinikanın həkimi Rafael Bayramov deyir ki, COVID-19 düşdüyü bir orqanizmdə mutasiyaya uğrayaraq fərqli formalar alır, vaksinasiya və müalicəni qeyri-mümkün edir. Azərbaycan hökumətinin çağırışı, həkimlərin həyəcan siqnalı da bununla əlaqədardır ki, xüsusi karantin rejimində aparılan yumşalmalar heç də infeksiya təhlükəsinin ötüb keçməsi demək deyil. Sadəcə olaraq, elə xidmət sahələri var ki, onun fəaliyyətini uzun müddət saxlamaq mümkün deyil. Nə koronavirus pandemiyası başa çatıb, nə də virusun yayılmaq təhlükəsi aradan qaldırılıb. Ona görə də sosial izolyasiya tədbirləri yenə də əvvəlki qaydada davam etdirilməli, küçəyə çıxarkən mütləq maska taxmalı, əlcək geyməli, dezinfeksiya tədbirlərini davam etdirməli, nəqliyyatda, küçədə, ticarət müəssisələrində, eləcə də iş yerlərində izolyasiya tədbirlərinə əməl etməliyik.

Ali dərəcəli həkim-kardioloq Həsən Məmmədov söyləyir ki, hazırda biz gözlə görünməyən, yediyin yemək, udduğun hava, toxunduğun əşya ilə orqanizmə daxil olaraq fəlakətli nəticələr verə bilən dəhşətli bir virusla üz-üzəyik. Bu virusla mübarizədə kiçik bir ehtiyatsızlıq, buraxılan bir səhv həm özünü, həm də ətrafdakıları çox böyük təhlükə altında qoyur: "Koronavirus pandemiyası hələ sona çatmayıb, bütün dünya amansız düşmənlə mübarizə aparmaqdadır. Ona görə də bir an da arxayınlaşmadan, qətiyyən geri çəkilmədən mübarizə davam etdirilməlidir. Elə etməliyik ki, bu günə qədər qazandıqlarımızı itirib daha ağır fəsadlarla üzləşməyək. Özü də bu pandemiyanın təkrar yoluxması indikindən daha ağır və təhlükəlidir. Ona görə də mövcud qaydalara riayət olunmalı və zəruri profilaktik tədbirlər davam etdirilməlidir, xüsusən də yaşı 60-65-i ötmüş insanlar evdən bayıra çıxmamalı, ictimai yerlərdə, market və xidmət sahələrində vətəndaşlar arasında lazımi məsafə gözlənilməlidir. Bunu nəzərə almasaq, çox güman ki, dəhşətli infeksiyanın ikinci dalğası başlaya bilər".

Bakının Xətai rayonunun sakini Telman Musayev deyir ki, ölkəmizdə koronavirus təhlükəsi ilə bağlı yaşı 65-dən yuxarı şəxslərin evdən bayıra çıxması qanunla qadağan edilib. Özünütəcrid, "Evdə qal!" kampaniyası davam etdirilməli olduğu halda bəzi yaşlı vətəndaşlar xüsusi karantin rejiminin yumşaldılması ilə əlaqədar qaydalara əməl etmək istəmirlər. Baxmayaraq ki, hələ onlarla bağlı bu qadağa qüvvədədir, onlar yenə də küçədə, mağazada, ictimai nəqliyyatda görünməyə başlayıblar. Bilməlidirlər ki, yumşalma prosesinin yaşı 65-dən yuxarı olan şəxslərə aidiyyəti yoxdur. Onlar sosial təcrid qaydalarına əməl edərək evdə qalmalı və bayıra çıxmamalıdırlar.

Ölkəmizdə karantin rejiminin yumşaldılması "təhlükə sovuşub getdi" anlamına əsas yaratmır. Sadəcə, dövlətimiz böyük qayğı göstərdi, iki ay məcburi məhdudiyyətlər qoyuldu, bu müddətdə də itkilərimiz az oldu. Növbəti günlərdə, həftələrdə hamılıqla elə etməliyik ki, tələb olunan qaydalara əməl edək və bununla da sərt karantin rejiminin təkrarən tətbiqinə şərait yaratmayaq. Əks halda adi bir laqeydlik koronavirusun ikinci dalğasının başlanmasına səbəb ola bilər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Azərbaycanda qlobal pandemiyaya qarşı qabaqlayıcı tədbirlər görülüb

### Dövlət tərəfindən vaxtında atılan addımlar ölkəmizdə koronavirusun geniş vüsət almasına imkan verməyib

Çinin Uhan şəhərindən yayılmağa başlayan yeni növ koronavirus infeksiyası (COVID-19) hər keçən gün artan ağlasığmaz statistikası ilə Yer üzərində vahiməsini sürdürməkdə davam edir. Dünya bütün qüvvəsini, gücünü bu virusla mübarizəyə sərf edir və ondan qurtulmağa çalışır.



Azərbaycanda da koronavirusun geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşın sağlamlığını qorumaq üçün koronavirusun ilk yayılma zamanlarından etibarən lazımi tədbirlər həyata keçirildi. Məhz pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində dövlət tərəfindən vaxtında atılan addımlar, eləcə də karantin rejiminin tətbiqi nəticəsində hazırda COVID-19-la bağlı sanitar-epidemioloji vəziyyət nəzarət altına alınıb və kütləvi yoluxma hallarının azaldılmasına nail olunub.

Prezident İlham Əliyev mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska və tikiş fabriklərinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında çıxışı zamanı da bu məsələni bir daha vurğuladı: "Koronavirus pandemiyası hər bir ölkə üçün gözlənilməz bir bəla oldu və bütün ölkələr, ilk növbədə, öz daxili resurslarını səfərbər etməyə çalışmış və pandemiyaya qarşı mübarizə üçün lazım olan tədbirləri görməyə başlamışdır, o cümlədən Azərbaycan. Deyə bilərəm ki, Azərbaycan ilk qabaqlayıcı addımlar atan ölkələrdəndir. Məhz bu addımlar nəticəsində biz bu günə qədər vəziyyəti tam nəzarətdə saxlayırıq və yoluxanların sayı kifayət qədər azdır."

#### Prezidentdən müraciət: "Bu qaydalara əməl etmək çətin deyil"

Prezident həmçinin pandemiyaya qarşı ölkəmizin əldə etdiyi bu nailiyyətləri ehtiyatsızlıq üzündən əldən verməmək üçün vətəndaşları məsuliyyətli olmağa dəvət etdi: "Başqa ölkələrlə, o cümlədən əhalisi bizimlə eyni sayda olan ölkələrlə müqayisədə Azərbaycanın vəziyyəti qat-qat yaxşıdır. Ancaq bu o demək deyil ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməliyik. Koronavirus qeyb olmayıb, koronavirus dolaşır. Peyvənd icad edilənə qədər bu problem mövcud olacaq. Ona görə vətəndaşlar da buna hazır olmalıdırlar. Biz üç həftənin müsbət dinamikasını nəzərə alaraq aprelin 27-dən etibarən yumşalma addımlarımızı atmağa başladıq. Çünki başa düşürük ki, bu, hər kəs üçün çox çətin dövrdür. Ancaq gördük ki, yumşalma tədbirləri artıq başlayan kimi yoluxanların sayı artmağa başladı. Nəyə görə? Çünki vətəndaşlar bir çox hallarda məsuliyyətsizlik göstərirlər, onlara tövsiyə olunan qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, dezinfeksiya vasitələrindən istifadə etmirlər. Beləliklə, öz həyatlarını və onlarla təmasda olan yüzlərlə insanın həyatını risk altına atırlar. Ona görə mən bir daha Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, bu qaydalara əməl etmək o qədər də çətin deyil. Həkimlər, mütəxəssislər deyirlər ki, indi əsas şəxsi gigiyenaya fikir vermək, dezinfeksiya vasitələrindən istifadə etmək, bir metr yarım, iki metr məsafə saxlamaq və maska taxmaq lazımdır. Çətin məsələ deyil. Ona görə bütün vətəndaşlardan bir daha xahiş edirəm ki, bu qaydalara əməl etsinlər".

#### Sərnişin avtobusları dezinfeksiya edilir

Bakıda sərnişin avtobusları yenidən dezinfeksiya edilib. Bununla yanaşı, sürücü kabinəsi olmayan avtobuslarda şəffaf arakəsmələr yaradılıb.

Bakı Nəqliyyat Agentliyinin rəsmisi Mais Ağayevin verdiyi məlumata görə, artıq sərnişindaşımalara cəlb edilən 1400-dən artıq avtobusda şəffaf kabinə quraşdırılması təmin edilib. Bildirilib ki, 553 avtobusda istehsalçı tərəfindən quraşdırılan kabinələr mövcuddur. Digər avtobuslarda da arakəsmələrin quraşdırılması üçün iş aparılır.

62 nömrəli müntəzəm marşrut xətti üzrə fəaliyyət göstərən avtobuslarda da sözügedən kabinələr yaradılıb. Bununla yanaşı, həmin marşrut xəttinə məxsus istehsalat bazasında 31 avtobus hər gün axşam saat 21:00-dan sonra yuyularaq dezinfeksiya edilir.

Qeyd edək ki, paytaxtda yerləşən 30 qarajda, ümumilikdə, 2100-ə yaxın avtobus yuyulduqdan sonra dezinfeksiya edilir.

#### Karantin qaydalarını pozanlar məsuliyyətə cəlb olunurlar

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə, 12.05.2020-ci il saat 00:00-dan 13.05.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 341 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən verilən məlumata görə, ölkədə xüsusi karantin rejiminin tətbiq edildiyi vaxtdan bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə, ümumilikdə, 52 580 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

#### Dünyanın koronavirus mənzərəsi

Artıq dünyada 4,34 milyona qədər insan yeni növ koronavirus infeksiyasına yoluxub.

Statistikaya əsasən, son bir sutka ərzində 85 335 nəfərdə virusa yoluxma aşkar edilib, bununla da yoluxanların, ümumilikdə, sayı 4 337 625 nəfərə çatıb.

Ölüm sayında da artım müşahidə edilib. Bir gündə 5320 nəfər infeksiyaya yoluxma nəticəsində həyatını itirib. Ümumilikdə, bu ölümcül virusdan ölənlərin sayı 292 451 nəfərdir. İndiyədək 1 597 865 nəfər sağalıb və hazırda 2 447 309 aktiv yoluxmuş xəstə var.

Ən çox yoluxma halları Avropa bölgəsindədir. Burada indiyədək 1 675 742 nəfərdə virus aşkar olunub, 155 762 nəfər isə dünyasını dəyişib. Cəmi 685 246 nəfər sağalıb.

Ölkələr üzrə isə ən çox yoluxma halları ABŞ (1 408 636), İspaniya (269 520), Rusiya (232 243), Böyük Britaniya (226 463), İtaliya (221 216), Fransa (178 225), Braziliya (177 6021), Almaniya (173 171), Türkiyə (141 475) və İranda (110 767) qeydə alınıb.

#### Onlayn sifariş zamanı virusa yoluxmamaq üçün kuryerlərlə birbaşa təmasdan qaçın

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) koronavirus pandemiyası dövründə onlayn sifariş edənlərə müraciət edib. Müraciətdə kuryerlərlə birbaşa təmasdan qaçmaq üçün məhsulların qapıya qoyulmasını xahiş etmək tövsiyə olunub.

Qeyd olunub ki, qida və ya əşyaları götürdükdən sonra əllər ən azı 20 saniyə su və sabunla yuyulmalı, yaxud spirt əsaslı məhlulla silinməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Göygöllülər dövlət başçısının pandemiyaya qarşı həyata keçirdiyi tədbirləri dəstəkləyirlər

Göygöl rayonunda koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri ilə bağlı dövlət başçısı İlham Əliyevin və Nazirlər Kabineti yanında Operativ Qərargahın göstəriş və tövsiyələri uğurla icra edilir. Rayonda sanitar epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanmaqla yanaşı, bu sahədə qabaqlayıcı tədbirlər də görülür.

Rayonun bütün yaşayış məntəqələrində icra nümayəndələri və bələdiyyələr yaradılmış mobil qrupların köməyi ilə əhali arasında maarifləndirmə işləri aparır, sakinləri maraqlandıran bütün məsələlərə aydınlıq gətirirlər. Demək olar ki, hər bir ailə, xüsusilə 65 yaşdan yuxarı olan insanlar ciddi nəzarətə götürülmüşdür.

Qeyd edək ki, koronavirus epidemiyası başlayandan mərkəzi rayon xəstəxanasında 994 nəfər test müayinəsindən keçirilmişdir. Bir nəfər vəfat etmiş, 5 nəfər sağalmış, 9 nəfər isə hazırda xəstəxananın infeksion şöbəsində müalicə olunur. Bundan başqa, 40283 nəfərdən virus infeksiyasına xas olan əlamətlərin olub-olmaması ilə bağlı sorğu da keçirilmişdir.

Rayonda aztəminatlı ailələrin, eləcə də 65 yaşdan yuxarı ahıl insanların ərzaqla təminatı da diqqət mərkəzindədir. İndiyədək Heydər Əliyev Fondu və "Regional inkişaf" İctimai Birliyinin həyata keçirdiyi "Biz birlikdə güclüyük!" sosial aksiya çərçivəsində elektron müraciətlər əsasında 385 ailəyə, eləcə də ailə başçısını itirmiş 421 ailəyə və sağlamlıq imkanları məhdud uşaqları olan ailələrə həmin təşkilatların nümayəndələrinin iştirakı ilə ərzaq bağlamalarından ibarət sovqat paylanmışdır. Ümumiyyətlə, Göygöl Rayon İcra Hakimiyyəti, rayonun idarə və təşkilatları, həmçinin sahibkarlar tərəfindən rayon ərazisində yaşayan şəhid ailələrinə, Qarabağ müharibəsi iştirakçılarına, aztəminatlı ailələrə və tənha qocalara 1500-dən çox ərzaq sovqatı verilmişdir.

Hazırda rayonda koronavirus epidemiyasının yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlər uğurla davam etdirilir. Rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamına əsasən yaradılan xüsusi qərargah da bu işdə fəallıq göstərir. Belə ki, rayon ərazisində yerləşən idarə və təşkilatlarda, təhsil müəssisələrində, uşaq bağçalarında, mədəniyyət obyektlərində, marşrut avtobuslarda və dayanacaqlarda, istirahət parklarında, yaşayış məhəllələrində, ticarət obyektlərində mütəmadi olaraq dezinfeksiya işləri aparılır. Paralel olaraq, rayon ərazisində xəstəliyə yoluxma hallarına yol verilməməsi və onun qarşısının alınması məqsədilə əhali arasında təbliğat və maarifləndirmə işləri bu gün də davam etdirilir.

Rayonu əhatə edən kənd və qəsəbələr də daim nəzarət altında saxlanılır. Elə bu günlərdə koronavirusla bağlı rayon ərazisində vəziyyətlə tanış olmaq üçün Göygöl Rayon İcra Hakimiyyətində inzibati ərazi dairələri üzrə nümayəndələrlə onlayn video-müşavirə keçirilmişdir. Müşavirədə Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimat və tövsiyələrinin yerlərdə əhaliyə çatdırılması istiqamətində əməli tədbirlərin görülməsi, xüsusi karantin rejiminin tələblərinə ciddi şəkildə riayət olunması, vətəndaşlar arasında fərdi şəkildə maarifləndirmə işlərinin aparılması ilə bağlı tapşırıqlar verilmişdir. Eyni zamanda bildirilmişdir ki, hər bir ailə, xüsusilə 65 yaşdan yuxarı olan insanlara nəzarət gücləndirilməlidir. İnsanların təmas imkanları minimuma endirilməli, onlar yalnız ciddi ehtiyac olduğu halda evdən çıxmalıdırlar.

Video-müşavirədə o da vurğulanmışdır ki, kənd və qəsəbələrdə dezinfeksiya işlərinə xüsusi nəzarət edilməli, mobil qrupların köməyi ilə sakinləri maraqlandıran bütün məsələlərə aydınlıq gətirilməlidir. Kənd təsərrüfatı işləri ilə məşğul olan sakinlərə arayışların verilməsinə diqqətlə yanaşılmalı, onlara lazımi dəstək göstərilməlidir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***






# Gənclik






● Gələcəyə dəstək

**Hər bir ölkənin, cəmiyyətin gələcəyə baxışında gənclər siyasəti xüsusi yer tutur. İstənilən strateji qərar onların maraqlarının təmin olunması, layiqli həyat şərtlərinin yaradılması naminə atılır. Eyni zamanda xalqların xoşbəxt gələcəyə olan ümidlərini həyata keçirə bilməsindən ötrü gənc nəslin gücünə, enerjisinə, yaradıcılıq əzminə böyük ehtiyac duyulur. Xalqın formalaşdırdığı bütün dəyərlər, zəngin ənənələr gələcəyə məhz gənclər vasitəsilə ötürülür.**



## Ulu Öndər hər bir gəncin himayədarı idi

Gənclik dövlətçilik ənənələrimizi, milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Bütün bunlar onların timsalında əbədilik qazanır və nəsillərə düzgün istiqamət verir. Bu baxımdan sağlam düşüncəli, savadlı nəslin yetişdirilməsi cəmiyyət üçün ən mühüm məsələdir.

Ulu Öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə də, 1993-cü ildə xalqın təkidi ilə təkrar hakimiyyətə qayıdışından sonra da gənclər məsələsinə xüsusi önəm verməsi məhz bu zərurətə əsaslanırdı. Ümummilli Lider hər zaman gəncliyə böyük ümidlər bəsləyirdi. Azərbaycanın gələcəyinin gənclərin əlində olduğunu vurğulayırdı. Sağlam düşüncəli gəncliyin bu ümidləri doğrultması və vətənin gələcəyinə sahib çıxa bilməsindən ötrü onlara diqqət və qayğısını bir an belə əsirgəmirdi. Bu böyük dövlət adamı fərqində idi ki, istənilən liderin hələ həyat yolunun başlanğıcındakı gəncliyə ən böyük töhfəsi onların təhsil almasına, fərdi inkişafına kömək göstərməkdir. Ona görə də Heydər Əliyev Azərbaycana hələ birinci rəhbərliyi dövründə onlarca yeni ali və orta ixtisas təhsili müəssisələri yaratmışdı. Ötən əsrin 70-80-ci illərində onun diqqət və qayğısı sayəsində minlərlə azərbaycanlı gəncin keçmiş ittifaqın ən aparıcı ali məktəblərinə müxtəlif nadir ixtisaslar üzrə təhsil almağa göndərilməsi də hər zaman rəğbətlə xatırlanan tarixdir. Müstəqil Azərbaycana rəhbərlik illərində də Heydər Əliyevin sağlam və sarsılmaz dövlətçilik ideologiyasının davamlılığında gənclər siyasəti daim ön sıralarda dururdu. O, gəncləri ölkənin ictimai-siyasi həyatında aktiv olmağa çağıraraq, yaxın gələcəkdə daha da dinamik inkişaf yoluna qədəm qoyacaq Azərbaycanın sonrakı uğurlarını gəncliyə göstərilən etimadda görürdü. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsini və ümumi fəaliyyətə cəlb edilməsini mühüm vəzifə kimi irəli sürürdü.

Heydər Əliyev deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi, mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".

### Qayğı, diqqət və inam

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları gözəl bilən Ümummilli Lider gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı.

1996-cı ildə Azərbaycan gənclərinə geniş və açıq müzakirə tribunası vermiş ilk forumun keçirilməsi təşəbbüsü də gəncləri daha fəal, daha məsuliyyətli və yetkin görmək istəyən Ulu Öndər Heydər Əliyevə məxsusdur. Həmin ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının keçirilməsi artıq ənənə halını aldı. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində hələ dünyada beynəlxalq gənclər günü elan edilmədiyi vaxtda - 1996-cı ildə Azərbaycanda "2 fevral - Ümumrespublika Gənclər günü"nün təsis edilməsi haqqında mühüm strateji qərarın qəbulu da gəncliyə verilən yüksək dəyər idi.

Bu forumlar Heydər Əliyevin tarixi qərarına əsaslanaraq gənclərin fikir mübadiləsi aparmaları, öz təklif və ideyalarını səsləndirmələri üçün platformanı təmin etməklə onların dövlətin və cəmiyyətin həyatında fəal iştirakına şərait yaradır. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumu zamanı Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünməlidir. ...Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!"

İlk forumdan ötən illər ərzində Azərbaycan gəncliyinin həyatında mühüm dəyişikliklər baş verdi. Ölkəmizdə ilk gənclər təşkilatları formalaşdı. Əməkdaşlığın genişlənməsi, məsuliyyətin artması nəticəsində Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurasının yaradılması gənclərin iştirakına, sosial təşəbbüskarlığına mühüm təkan verdi. Bundan sonra yerli idarələr vasitəsilə regionlardakı gənclərlə iş aparılmağa başlanıldı. Bütün bu işlərin nəticəsidir ki, hazırda müxtəlif dövlət qurumlarında xeyli sayda gənclər təmsil olunur.

### Tarixi nailiyyətlər

Ulu Öndərin Azərbaycan gəncliyinə olan inamı, ümidi tarixin yeni mərhələlərində özünü tam doğrultdu. Böyük uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti Azərbaycan Prezidenti İlham Əliyevin bu sahədə apardığı ardıcıl, məqsədyönlü işlə yeni inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan gəncliyinin həyatında 2003-cü ildən yeni bir yüksəliş dönəmi başlandı. Gənclərin cəmiyyətdə aparıcı qüvvəyə çevrilməsi, onların sosial-iqtisadi problemlərinin həllinin təmin edilməsi məqsədilə icra olunan dövlət proqramları, quruculuq işlərində gənclərin iştirakına şərait yaradılması, onların mənəvi inkişafı, vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər siyasətinin hüquqi bazasının formalaşması və inkişafına verilən dəstək bu tarixin ayrı-ayrı xoş məqamlarıdır.

Azərbaycanda "Gənclər siyasəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında" qanunlar, gənclər siyasətinin ayrı-ayrı sahələrini əks etdirən müxtəlif normativ-hüquqi sənədlər qəbul edildi. Gənclər siyasəti üzrə I Qlobal Forumun Azərbaycanda keçirilməsi, "Gənclər sahəsində Bakı Öhdəlikləri"nin qəbul edilməsi ölkəmizin gənclər siyasətinin uğurunu, yeni yanaşmaların və standartların tətbiqini əks etdirir. Son illərdə ardıcıllıqla qəbul edilmiş və hazırda uğurla həyata keçirilməkdə olan "Azərbaycan gənclərinin İnkişaf Strategiyası (2015-2025-ci illər)", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı" gənclərin fərdi inkişafı və qərarların qəbulu prosesində iştirakının artırılması istiqamətində yeni imkanlar yaradır.

Gənclərin maraqlarının təmin olunması, ideyalarının gerçəkləşməsinə dəstək sahəsində ciddi işlər görülür. Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı genişlənir. 2007-ci ildə ölkəmizdə "Gənclər ili"nin elan olunması, 2008-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəxri sədrliyi ilə Gənclərin Məşğulluğu üzrə IV Dünya Sammitinin, Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının keçirilməsi, Prezident Administrasiyasında gənclərlə iş üzrə ayrıca şöbənin yaradılması Azərbaycan gəncliyinin həyatında baş verən mühüm tarixi hadisələrdir.

Ölkə rəhbərinin bəyan etdiyi "Qara qızılın insan kapitalına çevrilməsi" prinsipi istiqamətində reallaşdırılan tədbirlərin əsas subyekti, təbii ki, Azərbaycan gəncliyidir. Gənclərin təhsili, fərdi inkişafı, bilgi qaynaqlarına çıxışı üçün elmi-texniki infrastruktur ildən-ilə inkişaf etdirilir. Dövlət büdcəsindən gənclər sahəsinə ayrılan vəsaitin həcmi genişlənir. Bu gün Azərbaycanda Gənclər Fondu uğurla fəaliyyət göstərir. Gənclər siyasətinin əsas infrastrukturu olan "Gənclər evi" şəbəkəsi genişlənir, gənclər üçün Prezident mükafatı təsis edilib.

### "Könüllülər ili"nin gəncləri

Ölkəmizdə gənclərin iştirakı ilə könüllülük hərəkatı geniş vüsət alıb. Gənclərimiz müxtəlif layihələrin icrasında könüllü kimi iştirak edərək təcrübə toplayır, gələcək karyera irəliləyişlərinə doğru ilk mühüm addımlarını atırlar. Azərbaycanda yaradılmış əlverişli biznes mühiti gənc sahibkarların öz biznes ideyalarını reallaşdıra bilmələrinə əlverişli şəraiti təmin edir. Gənclər özəl sektorda öz işlərini quraraq Azərbaycanın iqtisadi inkişafına dəyərli töhfələr verirlər. İnnovasiyalar, yeni mütərəqqi ideyalar bu gün cəmiyyət həyatına gənclər vasitəsilə, onların yaxından iştirakı ilə daxil olur.

Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci il ölkəmizdə "Könüllülər ili" elan edilib. Bu tarixi qərarın da gənclərlə bağlılığı böyükdür. Sərəncamda da qeyd edildiyi kimi, könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbidir. Öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Pandemiyanın tüğyan etdiyi dövrdə də gənclər öz iradələrinin diktəsi, ictimai faydalı fəaliyyətləri, yüksək enerjiləri ilə cəmiyyətə göstərdikləri təmənnasız xidmətlə könüllülük hərəkatının aparıcı qüvvəsi kimi çıxış edirlər. Fədakarlıqları, faydalı olmaq əzmi ilə bu fəaliyyətin mükəmməl örnəyini yaradırlar.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Tribuna

## Yüksək məsuliyyət və qaydalara riayət etmək vaxtıdır

**Mehriban ƏLİYEVA:** "Müdrik xalqımızın ruh yüksəkliyi, mərdliyi, mərhəməti və inamı sayəsində bu ciddi problemin öhdəsindən müvəffəqiyyətlə gələcəyik"

**Bəşəriyyəti lərzəyə gətirən koronavirus (COVID-19) pandemiyasının insanları məruz qoyduğu mənəvi itkini, ümumi fəsadı və məşəqqətləri rəqəmlərə sığdırmaq mümkün deyildir. Koronavirus pandemiyası səbəbindən dünyanın hətta inkişaf etmiş ölkələri də iqtisadi, maliyyə, səhiyyə və sosial problemlərlə baş-başa qalıb. Bu xəstəlik sərhədlər tanımır və gündə yüzlərlə insan həyatını itirir. Dünyanın aparıcı ölkələri belə pandemiyanın yaratdığı fəsadları aradan qaldırmaq, bu bəladan daha az itki ilə çıxmaq üçün yollar axtarır.**



Pandemiya dövründə islahatlar prosesinin genişləndirilməsi, biznesin qorunması, kiçik və orta sahibkarlara maliyyə yardımı, iş yerlərinin saxlanılmasında dövlət dəstəyinin göstərilməsi, aztəminatlı ailələrin sosial müdafiəsi tədbirləri, təxminən 20 minə yaxın tələbəni əhatə edən güzəştlər, mərhələli şəkildə imzalanan müvafiq fərman və sərəncamlar cəmiyyətin bütün təbəqəsinin sosial vəziyyətinin, maddi rifah halının yaxşılaşmasına xidmət etmişdir. Dövlət başçısının müəyyənləşdirdiyi hədəflər və qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə bağlı tapşırıqları pandemiya təşvişi ilə yaşayan hər kəsə böyük stimul oldu. Görülən bütün tədbirlər Prezident İlham Əliyevin "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş dayanır" fikrinin əməli müstəvidə təsdiqinin növbəti bariz təzahürüdür.

Qarşıya qoyduğu bütün layihələri uğurla gerçəkləşdirən, insanlara qayğı və təmənnasız xidməti ilə cəmiyyətdə böyük rəğbət qazanan, hər bir vətəndaşın müraciətinə həssas münasibət və problemlərinin həllinə maddi-mənəvi dəstək verən, milli dəyərlərimizin qorunması istiqamətində gördüyü işlər, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətdə danılmaz rolu olan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı fəaliyyəti xalqımız tərəfindən yüksək qiymətləndirilir və Heydər Əliyev irsinə verilən dəyərli töhfə kimi qəbul edilir. İctimai həyatın ən müxtəlif sahələrində fundamental layihələr həyata keçirən Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılmış, məhz bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif tədqiqat proqramlarının həyata keçirilməsi üçün vəsait ayrılır. Göstərilən təşəbbüslərin bariz nümunəsidir ki, xalqının maraqlarını hər şeydən üstün tutan gənc alimlərimiz cəmiyyətdə çox fəal rol oynayır, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, onu qorumaq istiqamətində, vətənpərvərlik və milli təfəkkür ruhunda inkişaf edirlər.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın koronavirus pandemiyasının dünyada tüğyan etdiyi çətin bir zamanda xalqa mükəmməl və vaxtında ünvanlanmış müraciəti milli düşüncəyə söykənən fəaliyyətinin, humanizm, xeyirxahlıq, vətənsevərlik hisslərinin bariz nümunəsidir. Müraciətdə qeyd edilib ki, bizim əksəriyyətimiz güman edirdik ki, bugünədək bəlli olmayan, insan həyatına son qoyan təhlükəli xəstəliklər və pandemiya dövrü keçmişdə qalıb: "İnanırdıq ki, biologiya elminin, tibbin, əczaçılığın və texnologiyaların müasir inkişaf səviyyəsi, o cümlədən bəşəriyyətin kollektiv intellekt səviyyəsi bizi müəyyən "sürprizlərdən" sığortalayıb. Reallıq isə fərqli oldu". Birinci vitse-prezident müraciətində onu da qeyd edib ki, COVID-19 barədə kifayət qədər məlumat var: "Yeni virus və ona yoluxmanın bütün fəsadları real zaman rejimində əsas dünya informasiya trendidir. Paradoksaldır, amma informasiya bolluğuna baxmayaraq, suallar cavablardan daha çoxdur".

Mehriban xanım Əliyeva dünyanın bu cür riskə hazır olmadığını, hətta səhiyyə sahəsində büdcələri milyardlarla ölçülən, nəhəng elmi-intellektual potensiala, qabaqcıl texnologiyalara malik ən inkişaf etmiş ölkələrin belə epidemiyanın yayılmasının qarşısını ala bilmədiklərini qeyd edib.

Birinci vitse-prezident ölkəmizdə bütün qüvvələrin hadisələrin ən pis yöndə inkişafının qarşısının alınmasına səfərbər olunduğunu, bütün dövlət strukturlarının mobilizasiya olunub və birgə fəaliyyət göstərdiyini vurğulayıb. COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycan dövləti ilə sıx əməkdaşlığa görə Ümumdünya Səhiyyə Təşkilatına minnətdarlığını bildirən Birinci vitse-prezident virusun tədqiqinin və xəstəliyə qarşı mübarizənin eyni vaxtda aparıldığını, buna görə də bir çox tövsiyələrin situativ xarakter daşıdığını və məlumat bazasının genişləndiyini qeyd edib.

Mehriban Əliyeva bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, xalqımızı Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə, təhlükəsizlik tədbirlərinə ciddi riayət etməyə, şəxsi məsuliyyət və intizamlılıq göstərməyə, özümüzü və ətrafımızdakıları qorumağa, milli dəyərlərə daha çox önəm verən, həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşan, yaşlı nəslin nümayəndələrini həssaslıqla qoruyan xalqımızı üzləşdiyimiz bu vəziyyətdə də daha diqqətli olmağa, laqeydliyə yol verməməyə çağırmışdır. Xalqımıza ünvanladığı müraciətində Mehriban xanım Əliyeva infeksiya ilə mübarizədə ön cəbhədə olan hər kəsə - həkimlərə, tibbi personala, müxtəlif dövlət qurumlarının əməkdaşlarına xüsusi minnətdarlığını bildirmişdir. Birinci vitse-prezident çağırışında əminliklə vurğulamışdır ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi, mərdlik, mərhəmət, şəfqət və inamı sayəsində bu ciddi problemin öhdəsindən gələcəyik.

Ölkə Prezidentinin rəhbərliyi ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın öz birillik maaşını fonda verməsi Azərbaycanda bu virusa qarşı mübarizədə dövlətin qəti siyasi mövqeyinin nümunəsidir.

Nəcib və mərhəmətli addımları ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş Azərbaycanın birinci xanımı Mehriban Əliyeva növbəti müraciətində irsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara dəstək məqsədilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankı tərəfindən keçirilmiş qanvermə aksiyasında könüllü olaraq iştirak edən Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin əməkdaşlarına nəcib əməllərinə, insan həyatının xilaskarı olduqlarına görə təşəkkürünü bildirmişdir. Mehriban Əliyeva müraciətində deyir: "Şəfqət, mərhəmət, humanizm, səxavət, xoş əməllər etmək, köməyə ehtiyacı olanın yanında olmaq kimi keyfiyyətlər həmişə bizim ən mühüm həyati dəyərlərimiz olmuşdur və bu gün də belədir. Bütün dünyanı sarsıtmış koronavirus pandemiyası ilə bağlı ölkəmizdə xüsusi karantin rejiminin tətbiq olunduğu bir vaxtda xalqımızın həmrəy olmaq, insansevərlik nümayiş etdirmək, diqqət və qayğı göstərmək bacarığı bizlərə ancaq qürur hissi yaşadır. Əminəm ki, sizin təşəbbüsünüz bu məsələyə laqeyd yanaşmayan və ölkəmizin yaxşılıq etməyə hazır olan bütün vətəndaşları tərəfindən dəstəklənəcəkdir!"

Dövlətimizin diqqətindən qaynaqlanaraq milli ruhda tərbiyə alan, xalqımızın maraqlarını layiqincə qoruyan gənc nəslin və pandemiya dövründə geniş vüsət almış könüllülər hərəkatının xüsusi əhəmiyyəti vardır, bu, cəmiyyətdə xeyirxahlıq və yeni davranış qaydaları təbliğ edir. Bu prosesdə dövlətlə yanaşı ictimaiyyət nümayəndələrinin, xüsusən də gənclərin üzərinə böyük məsuliyyət düşür. Dövlətin atdığı önləyici addımlar, həm də vətəndaş həmrəyliyi Azərbaycanın bu dəhşətli pandemiyadan ən az zərərlə çıxan ölkələr sırasında olmasına zəmin yaratmışdır. Pandemiya dövründə aparılan tədbirlər bir daha sübut etdi ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman Azərbaycan vətəndaşının yanındadır. Hər bir vətənpərvər azərbaycanlı gənc kimi haqlı olaraq mən də fəxr edirəm ki, müstəqil Azərbaycan Respublikasının vətəndaşıyam.

*Samirə BAĞIROVA,*
*AMEA Dendrologiya İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, biologiya üzrə fəlsəfə doktoru*

● Xoş məram

## Könüllülər maddi və mənəvi dəstək aksiyasına qoşulublar

**Koronavirusun tüğyan etməsi vahimə yaratsa da, əslində, insanların bir-birinə nə qədər gərəkli olmasını da bir o qədər ortaya qoydu. Bu çətin günlərdə gəncliyin könüllülük prinsipi əsasında xalqımızın aztəminatlı təbəqəsini, sosial cəhətdən yardıma ehtiyacı olanları tək buraxmaması humanitar siyasətə çevrilib. Bu, dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa müraciətindən sonra kütləvi hal alıb.**





Bakı şəhər Yasamal Rayon İcra Hakimiyyəti və "PAŞA Holding" MMC-nin keçirdiyi müştərək sosial aksiya da bu qəbildən olan tədbirlərdəndir. Karantin rejimində könüllü gənclərin də qatıldığı aksiya vasitəsilə Yasamal rayonu sakinlərinə, xüsusən də maddi ehtiyacı olanlara - aztəminatlı, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, tənha şəxslərə müxtəlif ərzaq məhsullarından ibarət yardımlar çatdırılıb. Rayonun müxtəlif ünvanlarında həyata keçirilən bu sosial aksiyadan maddi ehtiyacı olan 200-dən çox ailə faydalanıb.

Ərzaq paylarını qəbul edən Yasamal sakinləri insanlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər. Dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışı əsasında dövlət tərəfindən həyata keçirilən növbəti aksiyanı vətəndaşlar razılıqla qarşılayıb və təşkilatçılara öz minnətdarlıqlarını ifadə ediblər.

Həmçinin aksiya zamanı könüllülər koronavirusdan qorunmaq üçün ölkədə tətbiq edilən karantin qaydaları barədə vətəndaşlara ətraflı məlumat veriblər. "Evdə qal, sağlam qal" çağırışı dövründə həyata keçirilən bu sosial aksiya karantin şəraitində ehtiyacı olan şəxslərə həm maddi, həm də mənəvi dəstəkdir.

*"Azərbaycan"*

● Xəbər

## Gənclər dövlətin atdığı addımları dəstəkləyirlər

**Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Gənclər Fondunun, Gənclər Təşkilatları Milli Şurasının (ARGTMŞ) təşkilatçılığı ilə onlayn formatda həyata keçirilən və iki gün davam edən Gənclər Təşkilatlarının IV Milli Konqresi başa çatıb.**



Konqresin keçirilməsində əsas məqsəd gənclər təşkilatlarını COVID-19 pandemiyasına qarşı mübarizədə bir araya gətirmək, idarəetmənin və onlayn fəaliyyətin səmərəli mexanizmlərinin yaradılması haqqında müzakirələr aparmaq, gənclər təşkilatının imkanlarını gücləndirməkdir. Konqresdə prioritet istiqamət və vəzifələrlə bağlı qərarların qəbul edilməsi də diqqət mərkəzində olub.

Konqresin birinci günündə Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin sektor müdiri Həmid Nəsibov, ARGTMŞ-in sədri Məryəm Məcidova, o cümlədən beynəlxalq təşkilatların və biznes qurumların nümayəndələri, gənclər təşkilatlarının rəhbərləri və nümayəndələri iştirak ediblər.

Çıxışlarda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində əhalinin sağlamlığının və sosial rifahının qorunması istiqamətində görülən işlərdən, gənclər üçün həyata keçirilən ictimai maariflələndirmə layihələrindən və digər tədbirlərdən söhbət açılıb. Azərbaycan dövlətinin atdığı addımların gənclər təşkilatları və gənclər tərəfindən dəstəkləndiyi vurğulanıb.

Konqresin ikinci günündə "Pandemiyanın yaratdığı yeni çağırışlar və yeni imkanlar", "Gənclər təşkilatlarının keyfiyyət əmsalı" mövzularında panel müzakirələr olub. Eləcə də rəqəmsal öyrətmə və öyrənmənin üstünlükləri, gənclər təşkilatlarının fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və onlayn fəaliyyətinin strukturlaşdırılması, onlayn platformalara inteqrasiya, qiymətləndirilmə mexanizmləri, təşkilatlar tərəfindən gənclərimiz üçün göstərilən xidmətlər, təlimçilərlə işin təşkili mövzuları ətrafında fikir mübadiləsi aparılıb.

İki gün davam edən konqresdə gənclər təşkilatları nümayəndələrinin sualları cavablandırılıb, təklifləri qeydə alınıb.

Xatırladaq ki, konqresin keçirilməsi təşəbbüsü ilk dəfə 2012-ci ilin noyabrında Prezident İlham Əliyev Gənclər Təşkilatlarının IV Respublika Sərgisini ziyarət etdiyi vaxt irəli sürülüb. Gənclər Təşkilatlarının Milli Konqresi ilk dəfə 2013-cü ildə, daha sonra 2015-ci və 2017-ci illərdə keçirilib.

# Müəllimin şəxsiyyəti

**Bir müddət əvvəl Bakı Slavyan Universitetində Nəsimiyə həsr edilmiş bir tədbir keçirildi. Məni də Nəsimi yaradıcılığını araşdıran tədqiqatçılardan biri kimi dəvət etmişdilər: demişdilər yarım saat tez gəlin. Universitetin diqqəti çəkən səliqə-sahmanı, müasir tərtibatlı görkəmi öz yerində.**

Rektorun kabinetinə girəndə deputatları, görkəmli təhsil təşkilatçılarını, aktyor, böyük sənətkar Rasim Balayevi gördüm. Tədbir vəzifə ranqına görə məmurlara söz verilməsi kimi qurulmamışdı. Bu tədbir universitet tələbələrinin istedad potensialının nümayişi təşəbbüsü idi. Qalanları isə rektor Nurlana xanımın müəllimlik üslubu idi: görülən hər işə öz qəlbinin, daşan enerjisinin bir parçasını qoymaq. Düşündüm ki, Nurlana xanımın müəllim uğurunun əsl düsturu budur: təhsilə sevə-sevə xidmət etmək və yorulmamaq. Hər işdə nümunə göstərmək.

Nurlana Əliyeva fəaliyyətinə müəllim kimi, iddiasız bir müəllim kimi başlayıb. Nail olduğu hər uğuru da müəllim kimi qazanıb. Yəqin cavanlıqda heç təhsil təşkilatçısı olmaq haqda fikirləşməyib. Amma həmişə tapşırılan işə yaradıcılıq kimi baxıb, tələbələrini sevib, onlarda qabiliyyətlər yetişdirməyi özünə borc bilib və onlara güvənib. Həyata uzun illər yaratdığı öz məktəbindən baxıb. Bu həyatı daha yaxşı eləmək səylərini də öz məktəbində həyata keçirib. Otuzuncu illərdə mədəni inqilab dəyərlərini həmin məktəb yayırdı. Bu gün də dərin təcrübələrə əsaslanan və müasirliyə qovuşduran elm, bilik, peşəkarlıq, insanlıq məktəblərinə ehtiyac var. Bəlkə elə buna görə də Nurlana Əliyeva bu dəyərlər haqda bir kitab da yazıb. Bu kitabın yaranması Nurlana xanımın Azərbaycan məktəbinin potensialına inamını əks etdirir. Öz məqalələrində yorulmadan təkrar edir: biz məktəblərimizin maarifçilik və quruculuq imkanlarından çox istifadə etməli, məktəblərin cavan nəslin taleyindəki roluna kifayət qədər ciddi baxmalı və buna inanmalıyıq.

Nurlana xanım illər keçdikcə öz publisist qələminə daha artıq meydan verib. Amma bu da, əslində, onun əsas peşəsini, əsl müəllimliyi davam etdirmək istəyindən doğub həmişə. Bu istək də onun publisist yazılarının iki ayrılmaz mövzusunda özünü göstərib: Azərbaycan maarifçiliyi və Heydər Əliyev irsi. İkisi də onun üçün məhz Azərbaycanın böyük maarifçilərinin arzu və işlərinin davamıdır. Maarifçi babalarımızın ana dili uğrunda mübarizələri Nurlana xanımın bir çox yazılarından qırmızı xətt kimi keçir. 70-80-ci illərdə isə ana dilinin statusu, dövlət dilinə çevrilməsi, işlədilməsi və sevilməsi mövzusunu alim Heydər Əliyevin fəaliyyətində və əsərlərində tapır.

Bu müşahidələri mən Nurlana xanımın yeni kitabını vərəqlərkən hiss etdim. Bu, "Qüdrətli Azərbaycan naminə" (B., Mütərcim, 2019) adlı sanballı topludur. Nəşr xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi fəaliyyətinin 50 illiyinə həsr edilib. Bu da təsadüfi görünmür, çünki Nurlana xanımın publisistikasını ardıcıl izləyəndə aşkar görürsən ki, o, öndərin 1969-cu ildən sonrakı fəaliyyətinin ən yaxşı araşdırıcılarından biridir. Kitabın redaktoru, Heydər Əliyev irsinin tədqiqatçısı, akademik Nizami Cəfərov bu həqiqəti tamamilə doğru müşahidə və qeyd etmişdir.

Nurlana xanımın publisist kimi öz üslubu var: öndərin siyasi fəaliyyətinin əsas mərhələlərini o, öz şəxsi xatirələri fonunda təqdim etməyi bacarır. Bu, onun yazdıqlarına inandırıcılıq gətirir. Məsələn, respublikaya rəhbər seçilən öndərin ilk çıxışlarının qeyri-adi uğurunu yada salır. Qeyd edir ki, respublikanın yeni rəhbəri dövlət təhlükəsizliyi orqanlarında işlədiyindən sıravi vətəndaşlar onu nisbətən az tanıyırdılar. Amma yeni rəhbərin seçiləndən bir ay sonra 1969-cu ilin avqust plenumundakı nitqi onu bütün cəmiyyətə tanıtdı. Bu nitq vəziyyəti çəhrayı təsvir etməyə vərdişli olan kommunist ənənələrinə uyğun gəlmirdi, bu ənənələri dağıdırdı. Heydər Əliyev respublikanın iqtisadi, siyasi, mədəni həyatındakı kəskin sosial problemləri açıq şəkildə ortaya qoyub tənqid etdi. Bu, dövrünə görə çox sərt bir tənqid idi və cəmiyyətin bütün təbəqələrində əks-səda verdi. Sadə insanlar həqiqəti bilməyi və eşitməyi xoşlayırlar. Onlar Heydər Əliyevin şəxsində ölkə rəhbərliyinə qeyri-adi bir adamın gəldiyini anladılar. Həm də bu adamı xoşlayıb sevdilər. İlk növbədə, həqiqətpərəstliyinə görə, respublikanın tərəqqisi üçün ürəkdən yandığına görə. Beləcə sadə şəxsi müşahidələr mənalı ümumiləşmələr üçün əsasa çevrilir.

Nurlana xanım Ulu Öndərin siyasi səhnədə ilk addımlarını ölkəmizin əvvəlki rəhbərləri ilə müqayisə edir və onun əsas fərqini ortaya qoyur. Çünkü onun hər addımı Azərbaycanın müstəqilliyi hədəfinə doğru idi. Bu sadə və ən köklü mənası olan bir müşahidədir. Axı tarixin Ümummilli liderin öhdəsinə qoyduğu missiya qeyri-adi, mürəkkəb idi: müstəqil Azərbaycan dövlətini yaratmaq. Tariximizdə Heydər Əliyev epoxasının təyinatı belə idi. Tale ona Azərbaycanın müstəqilliyini hazırlamaq, bərpa etmək, sonra isə onu dönməz etmək vəzifəsi ayırmışdı. Heydər Əliyev 50-ci illərin ortalarından ömrünün sonuna qədər bu missiya ilə məşğul oldu. "Onun bütün ömrü - bu missiyaya doğru yoxuş, yüksəliş idi. O, bu yoxuşu nəfəsini dərmədən qalxdı, həm özünü, həm də doğma xalqını, dövlətini bu missiya üçün hazırladı..."

Bu ağlagəlməz dərəcədə çətin vəzifə idi. XX əsrin sonlarında dünya böyük dövlətlər arasında bölünmüşdü. Müstəqil dövlətlərin yaranması şansı sıfıra bərabər sayılırdı. Sovet rejimi öz qəddarlığı ilə dəfələrlə bəşəriyyəti heyrətdə qoymuşdu. Ona görə sovetlər imperiyasının dağılması heç kəsin ağlına sığmırdı. Belə ağır şəraitdə də Heydər Əliyev vətənin müstəqilliyinin real tarixi vəzifə olduğuna inanırdı. Onun bu inamı vətənin müstəqillik yoluna çıxması üçün misilsiz rol oynadı, xalqı bu yola hazırladı.

Heydər Əliyev irsinə münasibətdə Nurlana xanımı maraqlandıran əsas problem öndərin gələcəyimizin qurucusu olmasıdır. Siyasi yüksəliş illərində Heydər Əliyevin başlıca keyfiyyəti - onun parlaq dövlətçilik bacarığı özünü qabarıq göstərdi. O, öz siyasi planlarını çılpaq, volyuntarist əmrlər şəklində yox, gündəlik, yorulmaz təşkilatçılıq yolu ilə həyata keçirirdi. Ətrafındakı insanlar, cəmiyyət bunu çox vaxt hadisələrin təbii axarı kimi qəbul edirdilər. Əslində isə onun hər bir addımda dəyişikliyinin uzaqgörən məqsədləri var idi və bu məqsədlər həmişə milli dövlətçilik planları ilə bağlı idi.

Müəllifə görə, Ulu Öndərin digər rəhbərlik xüsusiyyəti onun uzaqgörənliyində, siyasi və iradi ardıcıllığında özünü göstərirdi. Uzaq və böyük planlar qurmaq milli liderimizin siyasi rəhbərliyinin mühüm cizgisi idi. Adətən onun siyasi qərarları və gedişləri üç-beş il sonraya yönəlirdi. Ona görə də Heydər Əliyevin qəbul etdiyi qərarların mənası ancaq beşyeddi il keçdikdən sonra tam sezilə bilərdi. Həm də hamı tərəfindən yox, onun Azərbaycanda yeritdiyi milliləşdirmə siyasətini duyanlar tərəfindən.

Müəllif yazır ki, sovet rəhbəri kimi davranan Heydər Əliyev əməldə bütün qərarlarını Azərbaycanı addım-addım, bütün sahələrdə milliləşdirməyə yönəldirdi. Bu xətt milli ruhlu kadrların aparıcı postlara yerləşdirilməsində və erməni millətindən olan şəxslərin mühüm çoxgəlirli iqtisadi postlardan uzaqlaşdırılmasında öz əksini tapırdı. Nurlana xanım çox doğru olaraq 1969-1982-ci illəri müstəqilliyin iqtisadi əsaslarını yaratmaq mərhələsi adlandırır. Bu mürəkkəb vəzifəni Heydər Əliyev cəmi on üç il ərzində həyata keçirdi. Qısa bir vaxtda SSRİ müdafiə sənayesinin Azərbaycanda 11 böyük zavodu tikildi. Bu zavodlar, bir tərəfdən, hərbi sənaye ocaqları olaraq müstəqillik dövrü üçün hava və su kimi vacib idi. Digər tərəfdən, bu zavodlarda keçmiş sovetlərin ən müasir və qabaqcıl texnologiyaları tətbiq olunurdu.

Bu illərdəki sürətli iqtisadi quruculuq xalqımızın azadlığa və müstəqilliyə nail olması yolunda köklü əhəmiyyət daşıyırdı. 70-ci illərdə gedən iqtisadi tərəqqinin, onlarla yeni zavod və fabriklərin tikintisinin bir əhəmiyyəti də Bakı şəhərinin böyüməsi və onun əhalisinin tərkibində azərbaycanlıların tam əksəriyyət təşkil edə bilməsi idi. Güclü iqtisadiyyatı olmayan xalq və dövlət xarici düşmənlərin müqavimətinə tab gətirə bilməzdi. Bunlar müstəqilliyin əsas şərti idi.




Nurlana xanımın bir çox məqaləsindən qırmızı xətt kimi keçən problemlərdən biri də Heydər Əliyevin ana dilimizin inkişafında və indiki işləkliyə çatmasında xidmətidir. O yazır: "Bu gün biz müstəqil dövlətdə yaşayırıq, ona görə gənc nəsil ana dilimizin bir vaxtlar yarıqadağalı bir status daşıdığını təsəvvür edə bilməz. Şəxsən mənim şagird və tələbə olduğum 60-cı illərdə rəsmi yığıncaqlarda ancaq rus dilində danışılırdı. Bu gün bunu təsəvvür etmək çətindir. Lakin ana dilimiz bir vaxtlar öz varlığını yaşatmaq üçün mübarizələr aparırdı. Birinci cəbhə rəhbərin özünün ana dilində danışması idi. İkinci cəbhə isə qanunverici və rəsmi yollarla dilimizin statusunun artırılması xətti idi. Sovet vaxtı hakimiyyət Kommunist Partiyasında idi. Bu partiyanın dili isə rus dili idi. Onun qaydalarına görə bir nəfər də olsun ana dilində sənəd hazırlaya bilməzdi".

Belə şəraitdə Heydər Əliyev respublikanın birinci şəxsi oldu. Lakin respublikanın birinci şəxsi də tam azad və müstəqil deyildi. Bütün vəzifəli şəxslər kimi, o da Moskvaya tabe idi, hər gün Moskvadakı nəzarətçilərlə ünsiyyətdə olmalı idi. Belə çətin şəraitdə Heydər Əliyev Azərbaycan dilində nitqlər etməyə başladı. Əvvəllər bu nitqləri Azərbaycan rayonlarındakı partiya məclislərində, təsərrüfat yığıncaqlarında edirdi. Nurlana xanım haqlı olaraq qeyd edir ki, rəhbərin ana dilində ilk nitqləri tarixi bir məna kəsb etdi. Onun 1969-cu ildə hakimiyyətə gəlişi ilə başlanan "milliləşmə prosesi mən deyərdim ki, bu nitqlərin təsiri ilə başladı. Həm də ən mühümü odur ki, əyalətdə, xalq kütləsinin içində başladı. İnsanlar rəhbərin gözəl, ana dilində etdiyi ifadəli çıxışlarında, onun dövlətçilik məntiqində, vətənimizi sürətlə qurub qüdrətli dövlətə çevirmək çağırışlarında müstəqil dövlətimizin doğma sədalarını eşitdilər".

Sonralar Ulu Öndər Bakıdakı məclislərdə də ana dilində danışmaq üçün fürsətlər tapdı. Yaradıcılıq ittifaqlarının, xüsusilə Yazıçılar İttifaqının məclislərində parlaq Azərbaycan türkcəsində çıxışlar etməyə başladı. Onun rəsmi partiya tədbirlərindəki çıxışları ana dilimizin heç vaxt işlənməmiş siyasi üslubunu yaratmışdı. Bunun özü də tarixi bir xidmət idi. Yüzlərlə məmurlar, sadə insanlar anlayırdılar ki, Heydər Əliyevin yorulmadan qurub yüksəltdiyi Azərbaycan iqtisadiyyatı özümüzündür və onun dövləti üçündür. Bunu dərk edən, rəhbərə sidqürəklə inanan yüzlərlə məmurlar sonralar Azərbaycanın müstəqilliyini müdafiə etdilər, bu müstəqilliyin memarının yaxın köməkçiləri və silahdaşları oldular.

Heydər Əliyev ana dilimizin dairəsini öz nümunəsi ilə genişləndirməklə yanaşı, digər tərəfdən, rəsmi yolla ana dilinin statusunu qaldırmaq üçün misilsiz xidmətlər göstərmişdir. 1978-ci il Konstitusiyası qəbul olunan zaman orada Azərbaycan dilinin dövlət dili kimi göstərilməsi layihədə yox idi. O zaman təhlükəli bir nəzəriyyə ortaya atılmışdı: iddia olunurdu ki, guya sovet dövlətində yaşayan bütün insanlar vahid bir millətə - sovet xalqına çevriliblər. Bu, milli dillərə və mədəniyyətlərə qarşı yönəlmiş yanlış nəzəriyyə idi. Belə vaxtda Heydər Əliyev Elmlər Akademiyasında böyük alimlərin iştirakı ilə Konstitusiya layihəsinin müzakirəsini təşkil etdi. Onun verdiyi qeyri-rəsmi istiqamət nəticəsində yığıncaq Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi göstərilməsi barədə təklif verdi. Bu təklifi Moskva qulaqardına vura bilmədi.

Nurlana xanımın Ulu Öndər haqqında araşdırmaları fəlsəfəçilikdən, mücərrədlikdən uzaqdır. O, haqlı olaraq deyir ki, Ümummilli liderin məntiqi həmişə dəqiq hədəflərə malikdir, sadədir və həyatidir, ona görə də həmişə qalib gəlirdi. Heydər Əliyevin irsi - milli quruculuq strategiyasıdır, bu irsin aktual mənası dahi rəhbərin praqmatik bir dövlətçi olmasıdır. Ona görə istər siyasi təbliğatda, istər tədris və təhsildə, istərsə də elmi sahədə əsas diqqət bu cəhətlərə yönəlməlidir. Heydər Əliyevin şəxsiyyətindən yeni nəsil əsas bir şeyi - praqmatik milli quruculuq konsepsiyasını öyrənməlidir, öz həyatını xalq, cəmiyyət, milli ideallara xidmət yolu kimi yaşamağı bacarmalıdır. Müəllif çox-çox haqlı olaraq yazır ki, Heydər Əliyev azərbaycançılığının ən aktual tərəfi budur: xalqın sabahını qurmaq, onun daha firavan yaşayışı üçün konkret işlər görmək.

Kitabda Heydər Əliyevin fəaliyyətinin bütün mərhələlərinin təsvirini tapmaq olar. Bunların hamısında müəllif bu irsin gələcəyimiz üçün aktual məqamlarını axtarır, tapır və önə çəkir. Ulu Öndərin müstəqillik illərində fəaliyyətindən bəhs edəndə ondan bir istedadlı islahatçı kimi danışır, konkret misallar gətirir və oxucusunu inandırır. Müəllif inamla deyir: Heydər Əliyev həmişə olduğu kimi, müstəqillik dövründə də xalqın tərəqqisinin əsasını onun güclü dövlətində və iqtisadiyyatında görürdü. Qısa bir tarixi vaxtda (1993-2003) nəinki müstəqil dövləti müxtəlif qəsdlərdən qorudu, üstəlik, onu sabitləşdirib möhkəmləndirdi, Azərbaycanın müstəqilliyini dönməz və əbədi etdi, dünyəvi, demokratik və hüquqi dövlət qurdu: ölkənin müstəqilliyini təsbit edən 1995-ci il Konstitusiyasını yaratdı, ölkədə liberal bazar iqtisadiyyatına keçid üçün hüquqi bazanı təmin etdi. Bütün bunlara görə müəllif Heydər Əliyevin "XXI əsrin lideri" adlandırır.

Ölkədə keçirilən hüquqi islahatların misilsiz əhəmiyyəti var idi. Qısa bir vaxtda qəbul olunan onlarla qanun, xüsusilə yeni mülki və cinayət qanunvericiliyi yeni rejimin sovet sistemindən əsaslı fərqlərini təyin etdi. Sürətli və prinsipial hüquqi islahatlar yeni, müstəqil və demokratik dövlətin yaradılması prosesini tamamladı. Artıq 1995-96-cı illərdə ölkə yeni bir siyasi yolda idi. Bu yolun bütün məzmunu onun, sözün həqiqi mənasında, milli tərəqqi yolu olması idi. Məhz bu illərdən xalq cəbhəsi siyasəti ilə dağıdılmış iqtisadiyyatımızın və cəmiyyətimizin tərəqqisi başladı.

2003-cü ildə İlham Əliyevin Prezident seçilməsi milli tərəqqi kursunun davamı idi. Bu kursun taleyi məhz siyasi varis problemindən asılı idi. Azərbaycanın Ermənistanla müharibə vəziyyətində olması, cənub və şimal qonşuları ilə mürəkkəb münasibətləri Heydər Əliyevin siyasi xəttinin diqqətlə və yaradıcı şəkildə davamını tələb edirdi. Ulu Öndər xarici qonşularla daimi intriqalar və ziddiyyətlər şəraitində diqqətlə ölçülüb-biçilmiş, səbirli və təmkinli siyasət aparırdı. Balaca dövlət üçün bu, həyati bir zərurət idi. Belə siyasəti xalqın maraqları tələb edirdi və tələsik siyasətbazlığın qarşısını alırdı.

Müəllif yazır ki, İlham Əliyevin şəxsində ölkə rəhbərliyinə Qərb tipli yeni idarəçilik texnologiyalarına, siyasi və diplomatik təfəkkürə dərindən bələd olan bir şəxs gəldi. Onun fəaliyyəti ilə qısa bir vaxtda ölkədə siyasi və təsərrüfat qərarlarının qəbul proseduru yenidən quruldu və intensivləşdi. Bu, iqtisadiyyatın idarə olunması effektivliyində özünü aşkar hiss etdirdi. Son on ildə vətənimiz ümumi daxili məhsulun artım tempi cəhətdən bütün MDB dövlətlərini arxada qoydu. Bu, siyasi praqmatizmin real bəhrəsi, iqtisadi idarəçiliyin səviyyəsinin yüksəlməsi demək idi. Real iqtisadi tərəqqi, sosial problemlərin sürətli həlli üçün bu, əsas şərt idi. Ölkənin büdcəsi qonşu ölkələrlə müqayisəyə gəlməz bir sürətlə artır ki, bu da real iqtisadi çiçəklənmənin nəticəsidir.

Nurlana Əliyeva ölkədəki qadın hərəkatının liderlərindən biridir, YAP Qadınlar təşkilatının sədridir. Təsadüfi deyil ki, onun publisistikasında Azərbaycan qadını mövzusu aparıcılardan biridir. Kitabda bu mövzuda məqalələr çoxdur. Onlardan bir çoxu Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətinə və nümunəsinə həsr olunub: "Arzuların reallaşdığı ünvan", "Qadın hərəkatının önündə", "Xeyirxahlıq ilahəsi", "Dövlətimizin çiyindaşı" məqalələri bu sıradandır. Bircə sonuncu məqaləni oxumaq kifayətdir ki, müəllifin Mehriban xanıma inam və məhəbbətinin istisini hiss edəsən. Bu da çox qiymətlidir, çünki publisistikanın təlqin gücünü, sosial səmərəsini çox-çox artırır. Müəllif Mehriban xanımdan danışanda "Olkə-ana ocaqı" bənzətməsni işlədir. Mehriban xanımın xalqımız içində populyarlığını ondakı ana ürəyinin böyüklüyü ilə izah edir, onun siyasi fəaliyyətini sağlam dövlətçiliyin bir hissəsi adlandırır.

Nurlana xanım Prezident İlham Əliyevin islahatçılıq fəaliyyətində Ulu Öndərin quruculuq strategiyasının davamını görür. Son dövrdə bu islahatların miqyasının artdığını, neqativ hallara qarşı mübarizənin sistemli xarakter aldığını təqdir edir, təəssüflə qeyd edir ki, bəzi Qərb dairələri bu uğurlara ikili standartlar prizmasından baxmaqda davam edirlər. Dövlət başçımız da bu riyakarlığa sərrast qiymətlər verir, xaricdə yuva salmış destruktiv qüvvələrin himayə edilməsini yolverilməz sayır.

Kitabda qüdrətli Azərbaycan naminə dövlətimizin müasir, davamlı siyasətinin reallaşmasına əvəzedilməz töhfələr verən Yeni Azərbaycan Partiyasının ölkəmizin uğurlarında misilsiz rolu əminliklə vurğulanır. Həmçinin "Dağlıq Qarabağ həqiqətlərinə fundamental elmi baxış", "İnsana dəyər verən siyasət", "Zərif güclülərin tribunası", "Gələcəyin inkişaf hədəfləri", "Zamanla mübarizənin qalibi", "Sıravi vətəndaşın arzuları" məqalələri müasir dünyamızın xoşbəxt gələcəyi naminə özünü həsr edənlərin tarixi fəaliyyəti haqqında bir müəllim-şəxsiyyətin nəsillərə ünvanladığı həqiqətlərdir.

***Rəhim ƏLİYEV,***
***filologiya elmləri doktoru***

# Sel suları 35 kV-luq hava xətti üçün təhlükə yaradıb

**Ölkə ərazisində müşahidə edilən qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq "Azərişıq" ASC gücləndirilmiş iş rejimini davam etdirir. Quba rayonunda 35 kV-luq "Təngaltı" və "Ulduz- 2" hava veriliş xətləri keçən ərazidə sel sularının artması nəticəsində çay öz vadisindən çıxıb elektrik dayağının fundamentini yumaq təhlükəsi ilə üzləşib.**



Operativ olaraq əraziyə cəlb olunan texnikanın köməyi ilə çayın məcrası dəyişdirilib və qəzanın qarşısı alınıb. Mövcud hava durumu ilə əlaqədar ərazilərə əlavə mal - materal və texnika ayrılıb. Qərb rayonlarında və o cümlədən "Mərkəzi Aran" Regional Enerji Təchizatı və Satışı idarəsinin ərazisində olan Göyçay və Ağsu rayonu ərazisində də elektrik enerjisi təsərrüfatına ciddi ziyan dəyib. Təmir- bərpa işləri davam etdirilir.

***"Azərbaycan"***







# Paşinyanın babası faşistlərə xidmət edib

## Ermənistan nasizmin qəhrəmanlaşdırılması prosesinə böyük dəstək verir

***Əvvəli 1-ci səh.***

Burada məntiqi bir sual önə çıxır: Nikol Paşinyan sələflərinin bu ağır mirasından niyə imtina etmir? Ermənistan baş nazirinin babası Nikol Paşinyanın Hitlerin əsgəri olması faktının ortaya çıxması bu sualın da cavabını aydınlaşdırır. Bu fakt həm də onu sübut edir ki, Ermənistanın baş naziri sələflərinin yox, birbaşa babasının və soyqırımı ideologiyasının erməni banilərinin mirasını davam etdirir.

Xatırladaq ki, Nikol Paşinyan "Mir" telekanalına müsahibəsində babası Nikolun adını daşıması ilə fəxr etdiyini deyib. Bundan sonra Nikol Paşinyan babası, 1913-cü il təvəllüdlü Nikol Paşinyanın fotosunu paylaşaraq onun Böyük Vətən müharibəsi illərində vətən üçün döyüşdüyünü qeyd edib: "Nikol Paşinyan, 1913-1943, 554-cü motoatıcı alayın 138-ci diviziyası."

Ancaq onun bu paylaşımından sonra Nikol Vartanoviç Paşinyan nasist ordusunun sıralarında, Qaregin Njdenin rəhbərlik etdiyi legionda SSRİ-yə qarşı döyüşdüyünə dair şərhlər yazılıb. Bildirilir ki, 1913-cü il dekabrın 23-də Yerevan quberniyasının Yenokavan bölgəsində anadan olmuş Nikol Paşinyan düşmənlə əməkdaşlıq edib və öldürülüb. Dəqiq məlum olan budur ki, Ermənistanın indiki baş nazirinin babası Ukraynanın bugünkü Jitomir vilayəti sovet ordusu tərəfindən faşistlərdən azad ediləndən ilyarım əvvəl, yəni 1943-cü il sentyabrın 29-da bu vilayətin Zvyaqel kəndində haqlı olaraq məhv edilib. Sovet qoşunları yaxınlaşdıqca oradakı partizan dəstələrinin və gizli qrupların fəallığı artırdı. Buna görə də istisna edilmir ki, hitlerçi-njdeçi Nikol Paşinyan məhz xalq könüllü dəstələrinin belə cəsarətli müqavimət əməliyyatlarından birində məhv edilib. Bu da məlumdur ki, Jitomir vilayətində yəhudi əhalini kütləvi şəkildə qırıblar. Bu iş əsasən SS polislərinə və digər murdar ünsürlərə tapşırılırdı. Ermənistanın indiki baş nazirinin babasının da məhz bu yolla çörəkpulu qazandığı ehtimal edilir.

Rusiyalı ekspert, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko bu xüsusda qeyd edir ki, Nikol Paşinyanın babası ətrafında qalmaqal və erməni baş nazirin Qaregin Njdeni müdafiə etməsi fonunda gözlənilməz susqunluğu çoxlu suallar yaradır. Onun sözlərinə görə, bu gün təkcə Böyük Vətən müharibəsinin tarixini təkrar yazmaq cəhdləri ilə deyil, həm də faşistlərin və onların əlaltılarının qəhrəmanlaşdırılması ilə mübarizə məsələsi daha da aktuallaşır: "Biz görürük ki, nasizmin qəhrəmanlaşdırılması bir sıra ölkələrdə, o cümlədən Ermənistanda fəal şəkildə davam edir. Fikrimcə, bu proseslərin əsasında həmin ölkələrdəki milli elitaların marağı ilə bağlı siyasət dayanır. Nasizm əlaltılarının qəhrəmanlaşdırılması problemi bu gün mövcuddur, onunla mübarizə aparmaq lazımdır və İkinci Dünya müharibəsinin tarixinin təkrar yazılması imkanlarının qarşısını almaq lazımdır. Hər şey aydındır: anti-Hitler koalisiyası var idi, Hitler Almaniyası var idi və Hitler Almaniyasına kömək edənlər var idi." Ekspert vurğulayıb ki, Rusiya və Azərbaycanın bu məsələdə mövqeyi üst-üstə düşür: nasistlərin qəhrəmanlaşdırılması və tarixin hansısa maraqlara uyğun təkrar yazılması qəbulolunmazdır.

İ.Korotçenko həmçinin Nikol Paşinyanın mərkəzində olduğu iri beynəlxalq qalmaqala da toxunub: "Vəziyyətin özü kifayət qədər qalmaqallıdır, rəsmi səviyyədə hələ də bir təkzib eşitməmişik və bu, təbii ki, suallar doğurur. Hesab edirəm ki, ilk növbədə, erməni xüsusi xidmətlərinin reaksiyası olmalıdır. Niyə? Çünki şübhə yoxdur ki, Paşinyan müxalifətdə olarkən onu araşdırıblar. Aydındır ki, onun barəsində müvafiq dosye aparılıb. Sual olunur: hakimiyyət dəyişikliyindən sonra bu araşdırmanın axırı necə oldu? Dosye məhv edildi? Bəlkə haradasa saxlanılır və Paşinyana qarşı təzyiq və hücum vasitəsi kimi istifadə oluna bilər? Qeyri-müəyyənlik bir çox suallar doğurur."

Ekspert vurğulayıb ki, N.Paşinyan hələ də ittihamlara cavab verməyib və əlavə edib ki, onun nasistlərin digər əlaltısı Qaregin Njdenin qəhrəmanlaşdırılmasını qətiyyətlə müdafiə etməsi daha çox sual doğurur: "Bu qalmaqal Paşinyanın əlaltısına qoyulan abidəni müdafiə etmək cəhdləri ilə uyuşur. Njde barəsində hər şey aydındır. Onu həbs edən SMERŞ əkskəşfiyyat təşkilatının rəyi var, onun işi ilə bağlı sənədlər var və orada aydın şəkildə qeyd olunub: Qaregin Njde SSRİ ərazisində Qırmızı ordunun arxa cəbhələrinə göndərilməsi üçün təxribatçı dəstələr hazırlayırdı".

Beləliklə, son hadisələrdən sonra Paşinyanın sərgilədiyi mövqe də onun bu cinayətlərə tam dəstək verdiyini üzə çıxarır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Dövlət vətəndaşından heç nə əsirgəmir

*Əvvəli 1-ci səh.*

Bundan da bir ay sonra Bakıda 200 çarpayılıq modul tipli xəstəxana istismara verildi. Bu, ölkə ərazisində qısa bir zaman ərzində tikiləcək 10 belə xəstəxananın birincisidir.

Xatırladaq ki, regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları çərçivəsində son 16 ildə ölkəmizdə 700-dən çox səhiyyə ocağı tikilib və ya əsaslı təmir edilib. Təkcə keçən il onların sayı 60 olub. Əlbəttə, mövcud xəstəxana fondu, fəaliyyət göstərən çoxsaylı müasir xəstəxanalarımız uzun illər ərzində xalqımızın tələbatını ödəmək gücündədir. Lakin həyat, yaranmış vəziyyət qarşıya yeni tələblər qoydu. Başqa sözlə, koronavirus pandemiyası öz qaydalarını diktə etdi və Azərbaycan dövləti vətəndaşlarının sağlamlığı naminə bu işdə maliyyə vəsaitini əsirgəmədi.

Dayanmadan "insan haqları" barədə danışan dövlətlər belə bir humanizm və səxavət göstərmək iqtidarında və istəyində olmadılar. Bütün bunlar bir daha sübut etdi ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində daim Azərbaycan vətəndaşı dayanır. Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışında dövlət başçısı demişdir: "Əlbəttə ki, koronavirusa qarşı mübarizədə bu xəstəxana və bundan sonra tikiləcək xəstəxanalar böyük rol oynayacaq. Ölkəmizin müxtəlif bölgələrində 10 belə xəstəxananın tikintisi nəzərdə tutulur. Əlbəttə ki, çarpayı sayının artırılması hər bir ölkə üçün koronavirusa qarşı mübarizədə xüsusi rol oynayır. Biz indi bəzi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Görürük ki, orada çarpayı çatışmazlığı ucbatından xəstələr vaxtında müalicə ala bilmir, koronavirusa yoluxmuş bir çox insan, ümumiyyətlə, xəstəxanalara götürülmür, onlar evlərdə qalırlar. Əlbəttə, evlərdə onları müalicə, onların vəziyyətini monitorinq etmək qeyri-mümkündür".

Pandemiyanın istənilən ölkənin iqtisadiyyatına böyük zərbələr vurduğu şəksizdir. Azərbaycanın bu ilin birinci rübündəki sosial-iqtisadi inkişafının nəticələri müsbət olsa da, gələcəkdə enmə istisna deyil. Lakin indiki çətin məqamda da Prezidentimiz insanların sağlamlığını və rifahını önə çəkir və bunu modul tipli xəstəxananın açılışında bir daha vurğulayıb: "Mən deyə bilərəm ki, pandemiyadan, əlbəttə, bizim iqtisadiyyatımız da zərər çəkir. İstisna deyil ki, ikinci rübün yekunları o qədər də ürəkaçan olmayacaq. Ancaq bu, ikinci dərəcəli məsələdir. Birinci dərəcəli məsələ vətəndaşların sağlamlığıdır... İnsanların sağlamlığı və sosial rifahı birinci yerdədir. Məhz bu məqsədlə 3,5 milyard manat vəsait ayrıldı. Pandemiyadan ən çox ziyan çəkən sahələrdə işini itirən 700 minə yaxın vətəndaşın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən verilir. Bu məqsədlə 600 min işsiz, aztəminatlı və qeyri-formal məşğulluqla pul qazanan insanlar dövlət tərəfindən maddi yardımla təmin edilir. Bütün bu işləri biz görürük ki, vətəndaşların sosial və maddi vəziyyətini sabit saxlayaq".

Bu il haqqı ödənilən 90 min ictimai iş yeri yaradılması haqqında qərar qəbul olunub və s. Bütün bunlar hələ sosial-iqtisadi tədbirlərin tam paketi deyil. Buraya həmçinin vergi güzəştləri, vergi tətilləri, kommunal ödənişlər və bank kreditləri xidmətlərində müəyyən güzəşt şərtləri və insanların rifahı üçün atılan digər önəmli addımlar da daxildir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev "Mir" televiziya kanalına müsahibəsində də bu mövzuya toxunmuşdur. Koronavirusla mübarizədə Azərbaycan dövlətinin məqsədyönlü, sistemli fəaliyyət göstərdiyini qeyd etmiş və demişdir: "İlk növbədə, bu, insanların sağlamlığı və təhlükəsizliyidir. İkinci növbədə, bu, iqtisadi inkişaf, habelə əhalinin sosial müdafiəsidir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Azercell" xeyirxah çağırışa qoşulub

## Şirkət əməkdaşları hemotoloji xəstəliyi olan uşaqlar üçün qanvermə aksiyasında iştirak edib







**Ölkənin lider mobil operatoru "Azercell" öz əməkdaşlarının timsalında növbəti mühüm sosial layihəni gerçəkləşdirib.**

Mayın 12-də şirkətdə Azərbaycan Talassemiya Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən uşaqlara yardım məqsədilə qanvermə aksiyası təşkil olunub. Şirkətin prezidenti Vahid Mürsəliyev və bəzi departament direktorları da daxil olmaqla, "Azercell" əməkdaşları qana ehtiyacı olan uşaqların köməyinə çatmaq üçün bu humanist aksiyada həvəslə iştirak ediblər.

Mərkəzi Qan Bankının həkim heyəti tərəfindən həyata keçirilən aksiyaya "Azercell Telekom" MMC-nin çoxsaylı əməkdaşı qatılıb. Peşəkar tibb vasitələrinin tətbiqi ilə icra edilən prosedur zamanı donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib. Həkim-hematoloqlar hər bir donoru hərtərəfli tibbi müayinə etdikdən sonra onlardan qan götürüblər. Toplanmış qan ehtiyatı Milli Hemotologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankı şöbəsində qeydiyyata alınmış və qan köçürülməsinə ehtiyac duyan uşaqlara yönəldiləcək.

Aksiyanın məqsədi talassemiya və hemofiliya, eləcə də digər irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım etməklə yanaşı, cəmiyyətin diqqətini bu sosial məsələyə cəlb etməkdir. Çünki karantin rejiminin tətbiqi ilə əlaqədar yaranmış qan çatışmazlığı həyatları qandan asılı olan hematoloji xəstələrə mənfi təsir göstərə bilər.

Qeyd edək ki, "Azercell Telekom" həm korporativ səviyyədə, həm də içilərinin təşəbbüsü ilə COVID-19 pandemiyası dövründə bir çox sosial layihə və xeyriyyə aksiyaları həyata keçirib.

***"Azərbaycan"***

# Yeni çağırışlara uyğun inkişaf strategiyası

*Əvvəli 1-ci səh.*

Ən islahatçı Prezident vurğuladı ki, bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır. Hətta müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi.

Əlbəttə ki, kadr islahatları ümumi islahatların tərkib hissəsidir. Həyata keçirilən köklü islahatlar ölkənin siyasi və ictimai həyatının bütün sahələrini əhatə edir. Prezident Administrasiyası, Nazirlər Kabineti və Milli Məclisdə aparılan islahatların əsas məqsədlərindən biri dövlət hakimiyyəti orqanlarının fəaliyyətini müasir dövrün çağırışları səviyyəsində qurmaq idi. Dövlət başçısı bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac olduğunu nəzərə alaraq məlum sərəncamı imzaladı.

Azərbaycan Respublikasında hər bir sahədə aparılan islahatların nəticəsi ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir. Çünki islahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Prezidentin dediyi kimi, bu islahatlar ölkənin gələcək dayanıqlı inkişafını şərtləndirir və islahatlarsız tərəqqi də mümkün deyil.

Əlbəttə ki, Prezident tərəfindən həyata keçirilən genişmiqyaslı islahatlar, o cümlədən kadr islahatları cəmiyyət həyatı üçün böyük əhəmiyyət kəsb edir. Çünki hansı sahədə kadr islahatları aparılırsa, o sahədə pozitiv dəyişikliklər baş verir və bu da vətəndaşlar tərəfindən rəğbətlə qarşılanır. Şübhəsiz ki, müasir dövrün çağırışlarına cavab verən bu islahatlar ölkəmizin ümumi inkişafına, məmur-vətəndaş münasibətlərinin sağlam ruhda qurulmasına özünün mühüm töhfələrini verəcək.

Kadr islahatlarının davam etdiriləcəyini söyləyən Prezident dedi ki, məhz bu islahatlar peşəkar, savadlı gənc kadrların müxtəlif vəzifələrə təyin edilməsi ilə nəticələnib: "Kadr islahatları aparılır və bu islahatlar imkan verib ki, yeni peşəkar, bilikli, müasir kadrlar önə çəkilsin. Onlara önəmli vəzifələr həvalə edildi və hesab edirəm ki, bu da zəmanənin tələbidir. Çünki bu gün müasir dünyada siyasi, iqtisadi sahələrdə, eləcə də beynəlxalq müstəvidə müasir yanaşmalar olmalıdır. Yüksəkkeyfiyyətli təhsil almış gənc kadrların həm hökumətdə, həm Prezident Administrasiyasında, həm də parlamentdə və digər qurumlarda təmsil olunması bizim şüurlu seçimimizdir. Təbii ki, təcrübəli kadrlar da öz biliklərini gənc nəsillə bölüşməlidirlər. Belə olan halda təbii ki, hüquq mühafizə orqanlarında da daha genişmiqyaslı islahatların aparılması başlıca şərtdir".

Dövlət başçısı onu da vurğuladı ki, kadrların peşəkarlığı da daim diqqət mərkəzində olmalı, fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir. İlk növbədə, dövlətçiliyə sədaqət prinsipləri həmişə üstün olmalıdır.

Hər kəs şahiddir ki, dövlət başçısı yeni vəzifəyə təyin etdiyi şəxsi qəbul edir və ona ciddi tapşırıqlarını, doğru məsləhətlərini verir. Lazım gəldikdə hətta ciddi şəkildə cəzalandırır.

Bütün bunları həm ölkə ictimaiyyəti, həm də beynəlxalq təşkilatlar da görürlər. Ona görə də hazırlanan hesabatlarda Azərbaycanda sosial-iqtisadi islahatların uğurla aparıldığı qeyd olunur. Dünya Bankının "Doing Business 2020" hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan 20 ölkəsindən biri seçilməsi, Sosial Tədqiqatlar Mərkəzi tərəfindən aparılan rəy sorğusunda əhalinin mütləq əksəriyyətinin Prezident İlham Əliyevi - islahatların rəhbərini birmənalı dəstəkləməsi söylənilənlərin real təsdiqidir.

Bir sözlə, Prezidentin sosial-iqtisadi və siyasi islahatlarının uğurları göz önündədir. Cənab İlham Əliyevin mütərəqqi islahatları ölkəmizin dinamik inkişafının gətirdiyi yeni keyfiyyət mərhələsində baş tutur və kompleks xarakter daşıyır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Neftçala rayonunda qanvermə aksiyası keçirilib

13 may 2020-ci il tarixində Neftçala rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü, Neftçala Rayon İcra Hakimiyyətinin və Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə qanvermə aksiyası keçirilmişdir. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün keçirilən qanvermə aksiyasında rayon icra hakimiyyətinin aparat işçiləri, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların nümayəndələri, gənclər, rayon ictimaiyyətinin digər nümayəndələri iştirak etmişdir.



Mərkəzi Qan Bankının xüsusi tibb briqadasının həkim-hemotoloqları mərkəzi rayon xəstəxanasının tibb heyəti ilə birgə könüllü donorları müayinə etdikdən sonra onlardan qan götürüblər. Gün ərzində davam edən humanitar aksiya çərçivəsində onlarca könüllü donordan qan götürülüb. Toplanan qan nümunələri laboratoriyada müayinə olunduqdan sonra Qan Bankına təhvil veriləcəkdir.

***S. CAVADOV,***
***"Azərbaycan"***

# *DTX və Baş Prokurorluq:* "Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməllərinin qarşısı alınıb"

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluq tərəfindən həyata keçirilmiş birgə əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməllərinin qarşısı alınıb. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, hazırda araşdırmalar davam etdirilir.

İctimaiyyətə əlavə məlumat veriləcək.

# *Eldar SULTANOV:* "DSX-nin vəzifəli şəxslərinin qanunazidd əməlləri ilə bağlı cinayət işi başlanıb"

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunsuz əməllərinin ifşa edilməsi ilə bağlı keçirdiyi əməliyyata münasibət bildirib.

E.Sultanov AZƏRTAC-ın sorğusuna cavabında keçirilən əməliyyatı təsdiqləyərək qeyd edib ki, DSX-nin Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməlləri ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb, detalları barədə əlavə məlumat veriləcək.

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən həyata keçirilmiş birgə əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməllərinin qarşısı alınıb.

Araşdırmalar davam etdirilir.

# *DSX:* "Düşmən Qazaxda yaşayış evlərini, hərbi və mülki nəqliyyat vasitələrini atəşə tutub"

**Azərbaycan Respublikasının Ermənistan Respublikası ilə dövlət sərhədində düşmən tərəfinin təxribatları davam edir.**

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, mayın 13-də saat 12:00-dan başlamaqla Qazax rayonunun Abbasbəyli kəndi, kənd yaxınlığındakı sərhəd-döyüş məntəqələrimiz, həmin istiqamətdə avtomobil yolu ilə hərəkət edən hərbi və mülki nəqliyyat vasitələri Ermənistan silahlı qüvvələrinin İcevan rayonunun Berkaber kəndi yaxınlığında yerləşən bölmələri tərəfindən iriçaplı silahlardan və snayper tüfənglərindən intensiv atəşə tutulub. Bir neçə yaşayış evinin damına zərər dəyib.

Düşmən təxribatının qarşısı alınıb, Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub.

***"Azərbaycan"***


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1LOT üzrə keçirilir.

LOT 1: -"Aztelekom" MMC-nin istismarında olan dizel generator qurğuları üçün ehtiyat hissələrinin satınalınması

**İştirak haqqı: 250 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.azvahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **08 iyun 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **17 iyun 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **18 iyun 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankında istismarda olan FİNA informasiya sisteminin proqram platformasının dəstəklənməsi xidmətinin satın alınması, Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında yerləşən Avtomatlaşdırılmış Telefon Stansiyalarına servis xidmətinin satın alınması vəAzərbaycan Respublikasının MərkəziBankı üçün mərkəzdənqaçma su nasosununsatın alınmasıilə bağlı kotirovka sorğularına dair Satınalmalar komissiyasının qərarına əsasən 1-ci məsələ üzrə "FİNA" MMC,2-ci məsələ üzrə"ANTR" MMC və 3-cü məsələ üzrə isə "SAFENERRJİ" MMCqalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi sabiq rabitə naziri

**NADİR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən Zakir Quliyev Rəşid Ağayevə qardaşı

**AĞACAN AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi sabiq rabitə naziri

**NADİR ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sahir Məmmədxanov sabiq rabitə naziri

**NADİR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

**Tiraj 7538**
**Sifariş 1234**
**Qiyməti 40 qəpik**